RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN




№ 133 (9300) 24 İYUN 2023-cü il ŞƏNBƏ

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR



# Sülhdən qaçanlar biabırçı məğlubiyyətə düçar olurlar

## Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV

### Ermənistana və onun havadarlarına son xəbərdarlığını etdi: "Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da"

- Müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırırlar. Bütün bunları nəzərə alaraq, ordumuzun daha da gücləndirilməsi vəzifəsi birnömrəli vəzifə olaraq qalır. Buna nail olmaq üçün təbii ki, kompleks tədbirlər görülür.
- Vətən müharibəsindən sonra yeni silahların alınması prosesi davam edir və artıq bir çox kontraktlar imzalanmışdır - həm yeni pilotsuz uçuş aparatlarının ölkəmizə gətirilməsi, həm uzaqmənzilli raketlərin ölkəmizə gətirilməsi, o raketlər ki, böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malikdir.
- Bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür.
- Uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın.
- Bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir.
- Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidirlər. Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmır, hər bir təxribata layiqli cavab verilir, istər hərbi cavab, istər siyasi cavab.
- Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən ilk növbədə bizim hərbi potensialımızdır.
- İkinci Qarabağ müharibəsindən sonra bölgədə gündəliyi müəyyən edən yenə də biz olduq. Bu gün regionda proseslər yenə də bizim təkliflərimiz əsasında cərəyan edir.
- Vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!"
- Azərbaycan-Ermənistan şərti sərhəd istiqamətində baş vermiş hadisələr, ermənilərin yaşadıqları Qarabağ bölgəmizdə hərbi əməliyyatlar və iki ay əvvəl Ermənistan-Azərbaycan sərhədində, onun Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir. Yəni biz bütün addımlarımızı vahid proqram əsasında atmışıq.
- Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi.
- Biz qisas yox, ədalət tələb edirik. Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsınlar və belə olan halda biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq. Əks təqdirdə bizim də addımlarımız adekvat olacaq.
- Biz erməni vəhşiliklərini heç vaxt unutmamalıyıq. İşğal dövründə bizim şəhərlərimiz yerləyeksan edilmişdir. Tarixi abidələrimiz dağıdılmışdır. Bizim müqəddəs ocaqlarımız təhqir edilmiş və dağıdılmışdır. Bunu edən bizim mənfur qonşularımız idi. Buna göz yuman beynəlxalq aləm, beynəlxalq ictimaiyyət və indi hər gün Ermənistana baş çəkən rüşvətxor Avropa məmurları və deputatlarıdır. Onları bu ədalətsizliyə vadar edən nədir? İkili standartlar və rüşvət! Bunun başqa izahı ola bilməz.
- Hünəriniz varsa, gəlin, görək sonra axırınız nə olacaq?
- Bu gün biz azad edilmiş torpaqlarda geniş quruculuq işləri ilə məşğuluq. Biz keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarırıq. Biz Ermənistanla sərhəd boyunca əlverişli mövqelərə sahibik. Biz o mövqelərdə möhkəmlənirik. Strateji yüksəkliklərdə olmağımız bizə strateji üstünlük təmin edir.

2-5

## Azərbaycanın özü qədər əbədi



### Müasir Azərbaycan tarixində daha bir şərəfli gün

Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 24-də Prezidentin səlahiyyətlərini icra etməyə başlamışdır

Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycanın dövlətçilik irsinin çox əhəmiyyətli bir hissəsini təşkil edir. Bu böyük dövlət adamı məzmunca bir-birindən xeyli fərqlənən iki dövrdə Azərbaycana rəhbərlik etmiş, fərqli şəraitə, zamanın bir-birinə bənzəməyən çağırışlarına rəğmən, vətəninin inkişafı üçün mövcud imkanları maksimum reallaşdıra bilmişdir. Ümummilli Lider gələcəklə bağlı aydın, məqsədyönlü strategiyalar müəyyənləşdirə, xalqın potensialını böyük məqsədlərə doğru səfərbər edə bilirdi. Vəziyyətləri idarə etmək ustalığı, xalqın, dövlətin maraqlarını hər bir situasiyada qorumaq əzmi, ən doğru qərarları vermək fəhmi, insanlara təsir gücü, nüfuzu, qətiyyəti, mətinliyi, məqsədyönlülüyü Heydər Əliyev böyüklüyünün ayrı-ayrı cəhətləridir.

7

### Dərman vasitələrinin qeydiyyatı prosesi təkmilləşdirilir

**İyunun 23-də Milli Məclisin növbədənkənar sessiyasının daha bir iclası keçirilib. Gündəliyə keçməzdən əvvəl spiker Sahibə Qafarova deputatlara iyunun 19-dan 21-dək onun rəhbərliyi ilə nümayəndə heyətinin Avstriya Respublikasına rəsmi səfəri haqda qısa məlumat verib.**

Spiker qeyd edib ki, bu səfər, ümumiyyətlə, Milli Məclis Sədrinin Avstriyaya ilk rəsmi səfəri idi. Bildirilib ki, səfər çərçivəsində nümayəndə heyəti Vyanada Azərbaycan səfirliyində olub. Orada Ulu Öndər Heydər Əliyevin büstü önündə bu böyük dövlət xadiminin əziz xatirəsi dərin ehtiramla yad edilib.

6

### Qarabağdakı ermənilərin ən optimal yolu

"Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq", - deyən Prezident İlham Əliyevin fikrincə, Azərbaycanda məskunlaşmış bütün xalqların və etnik qrupların nümayəndələrinə daim bərabərhüquqlu münasibət göstərilir.

Eləcə də Azərbaycanın sülh gündəliyi ilə bağlı mövqeyi iki yanaşmadan ibarətdir: Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanması və Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsi.

8

### Bir qızıl, bir bürünc medal




Polşada keçirilən III Avropa Oyunlarında karateçilərimiz medal sayını artırmaqla xalqımızı sevindirməkdə davam ediblər. Dünən 84 kq-dan yuxarı çəkidə çıxış edən Asiman Qurbanlı da yarımfinala vəsiqə qazanmaqla bunu bacarıb.

11

# Sülhdən qaçanlar biabırçı məğlubiyyətə düçar olurlar

## Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV Ermənistana və onun havadarlarına son xəbərdarlığını etdi: "Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da"

**İyunun 23-də Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Müdafiə Nazirliyinin komando hərbi hissələrinin birində yaradılan şəraitlə tanış olub, hərbi hissəyə Döyüş bayrağını təqdim edib.**

AZƏRTAC xəbər verir ki, müdafiə naziri general-polkovnik Zakir Həsənov Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə raport verdi.

Dövlət başçısı Ümummilli Lider Heydər Əliyevin hərbi hissənin ərazisindəki abidəsi önünə gül dəstələri düzdü, Ulu Öndərin əziz xatirəsini ehtiramla yad etdi.

Sonra Prezident İlham Əliyev şəxsi heyətin atış vərdişlərini təkmilləşdirməsi üçün təyin olunmuş qapalı atış şəhərciyinə baxdı. Məruzə olundu ki, burada tapança, pnevmatik silah və kiçikçaplı tüfənglərdən atəş açmaq üçün nəzərdə tutulmuş 25 metr uzunluğunda iki atış zolağı, həmçinin atışın nəticələri əks olunan monitor mövcuddur.

Dövlət başçısı komandoların fiziki hazırlıq səviyyəsinin yüksəldilməsi üçün zəruri trenajor və digər idman avadanlıqları ilə təchiz olunmuş qapalı idman zalına gələrək buradakı şəraitlə maraqlandı.

Hərbi hissədəki açıq idman şəhərciyində isə güc məşğələlərinin icrası üçün avadanlıqlar, dözümlülüyün artırılması məqsədilə maneələr zolağı, eləcə də futbol, voleybol, uzunluğa və hündürlüyə tullanma meydançaları yaradılıb. Ali Baş Komandan burada komandoların intensiv hazırlıq məşqlərini izlədi.

Sonra Ali Baş Komandan əsgər yataqxanasında yaradılan şəraitlə tanış oldu, oradakı silah otağı, əşya anbarı, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı üçün ideoloji iş və digər inzibati otaqlara baxdı. Silah otağında Prezident İlham Əliyevə əksəriyyəti Azərbaycan istehsalı olan silah nümunələrinin taktiki-texniki xüsusiyyətləri barədə məlumat verildi.

Əşya anbarında nümayiş etdirilən müxtəlif hərbi geyim formaları arasında Azərbaycan Ordusunda yeni tətbiq olunacaq səhra geyim forması da təqdim edildi.

Sonra dövlət başçısı hərbi hissənin sıra meydanına gəldi.

Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevə hərbi hissəyə Döyüş bayrağının təqdim edilməsi mərasiminə hazırlıq barədə məruzə olundu.

Ulu Öndər Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda mübarizədə həlak olan şəhidlərimizin xatirəsi birdəqiqəlik sükutla yad edildi. Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildi.

Dövlət başçısı tədbirdə çıxış etdi.

*Bax: səh. 3*


















# Sülhdən qaçanlar biabırçı məğlubiyyətə düçar olurlar

## Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV Ermənistana və onun havadarlarına son xəbərdarlığını etdi: "Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da"

## Prezident İlham Əliyevin çıxışı








- Əziz hərbçilər.

Mən sizi və silahlı qüvvələrimizin bütün şəxsi heyətini qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik edirəm.

**Hərbçilər:** Sağ ol.

**Prezident İlham ƏLİYEV:** Bu bayram günü ərəfəsində ölkəmizdə növbəti komando hərbi hissəsi açılır. Bu çox əlamətdar hadisədir. Bildiyiniz kimi, Vətən müharibəsindən sonra mənim göstərişimlə Müdafiə Nazirliyində Komando Qüvvələri yaradılmışdır və komandoların sayı gündən-günə artır. Artıq bir neçə hərbi hissə fəaliyyət göstərir və yeni hərbi hissələrin açılışı nəzərdə tutulur. Beləliklə, biz öz döyüş qabiliyyətimizi əhəmiyyətli dərəcədə artırırıq və artıracağıq.

İkinci Qarabağ müharibəsində Xüsusi Təyinatlı Qüvvələr xüsusi peşəkarlıq və qəhrəmanlıq göstərmişlər. Bir çox hərbi əməliyyatların keçirilməsində onların xüsusi rolu var idi. Bütün bunları və müasir döyüş əməliyyatlarını nəzərə alaraq yeni Komando Qüvvələrinin yaradılması mənim tərəfimdən qarşıya bir vəzifə kimi qoyulmuşdur və bu vəzifə uğurla icra edilir.

İkinci Qarabağ müharibəsindən sonra ordu quruculuğu prosesi daha geniş vüsət almışdır. Təbii ki, işğal dövründə ordu quruculuğu bizim üçün birnömrəli vəzifə idi və ordumuzun, bütün silahlı qüvvələrimizin torpaqlarımızın azad olunması üçün hazırlıq işlərinə xüsusi önəm verilirdi və biz buna nail olduq. Vətən müharibəsi Azərbaycan dövlətinin tam Zəfəri ilə yekunlaşmışdır.

Ancaq buna baxmayaraq, müharibədən sonra ordu quruculuğu üçün əlavə addımlar atılır və buna böyük ehtiyac var. Çünki dünyada geosiyasi vəziyyət gərginləşir, bölgəmizdə yeni təhdidlər mövcuddur, Ermənistanda revanşist qüvvələr baş qaldırırlar. Bütün bunları nəzərə alaraq, ordumuzun daha da gücləndirilməsi vəzifəsi birnömrəli vəzifə olaraq qalır. Buna nail olmaq üçün, təbii ki, kompleks tədbirlər görülür. Vətən müharibəsindən sonra yeni silahların alınması prosesi davam edir və artıq bir çox kontraktlar imzalanmışdır - həm yeni pilotsuz uçuş aparatlarının ölkəmizə gətirilməsi, həm uzaqmənzilli raketlərin ölkəmizə gətirilməsi, o raketlər ki, böyük dağıdıcı qüvvəyə və yüksək dəqiqliyə malikdir.

Müdafiə Nazirliyinin strukturunun təkmilləşdirilməsi prosesi gedir və bu proses davam edir. Hərbi təhsillə bağlı qəbul edilmiş qərarlar əminəm ki, yaxın gələcəkdə öz bəhrəsini verəcəkdir. Yeni döyüş birləşmələrinin yaradılması, ilk növbədə Komando Qüvvələrinin yaradılması döyüş qabiliyyətimizin artırılması üçün önəmli amillərdən biridir.

Biz bu gün silahlı qüvvələrimizi vahid proqram əsasında inkişaf etdiririk və əminəm ki, yaxın gələcəkdə bizim ordumuz yeni, yüksək səviyyəyə qalxacaqdır. Mən bunu artıq demişəm, bir daha demək istəyirəm, bu gün Azərbaycan Ordusu müharibə dövründə qəhrəmanlıq və peşəkarlıq göstərmiş Azərbaycan Ordusundan daha da güclüdür.

Bununla bərabər, digər xüsusi təyinatlı qüvvələrdə şəxsi heyətin say tərkibi genişləndirilir, Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin sayı böyük dərəcədə artırılmışdır. Mən artıq qeyd etdim, müharibə dövründə Müdafiə Nazirliyinin xüsusi təyinatlıları xüsusi qəhrəmanlıq və peşəkarlıq göstərmişlər. Müdafiə Nazirliyinin dəniz piyadalarının sayı bir neçə dəfə artırılıb və bu artım davam edir. Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Dövlət Təhlükəsizliyi Xidməti, Xarici Kəşfiyyat Xidməti - bu qurumların xüsusi təyinatlı qüvvələrinin sayı dəfələrlə artırılıb və bütün bu böyük qüvvə bir məqsəd güdür, ərazimizin qorunması, ölkəmizin ərazi bütövlüyünün təmin edilməsi və əgər bizim təhlükəsizliyimizə təhdid olarsa, düşmən qüvvələrə sarsıdıcı zərbələrin endirilməsi. Bu gün deyəndə ki, İkinci Qarabağ müharibəsindən sonra ordumuz daha da güclənib, o cümlədən mən bunu nəzərə alıram.

Onu da bildirməliyəm ki, uğurlu iqtisadi siyasətimiz bizə imkan verir ki, ordu quruculuğuna, yeni silahların, yeni texnikaların alınmasına, yeni döyüş birləşmələrinin yaradılmasına lazımi dərəcədə dövlət vəsaiti ayrılsın. Bizim uğurlu iqtisadi siyasətimizi, ölkəmizin artan gəlirlərini nəzərə alaraq, bu yaxınlarda dövlət büdcəsinə əlavələr edilmişdir. Onsuz da bu ilin dövlət büdcəsi müstəqil Azərbaycan tarixində rekord büdcədir. Ancaq buna baxmayaraq, biz əlavə vəsaiti əldə edən kimi büdcənin artırılmasına yeni böyük məbləğdə vəsait ayırdıq və burada iki əsas istiqamət müəyyən edilmişdir - birincisi, Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsi, ikincisi, hərbi potensialımızın gücləndirilməsi. Yəni təkcə bu fakt özlüyündə onu göstərir ki, bizim üçün bu gün prioritet məsələlərdən biri ordu quruculuğu, digəri isə Qarabağ və Şərqi Zəngəzurun bərpa edilməsidir.

Bundan sonra da ordumuzun daha da gücləndirilməsi üçün bütün lazımi tədbirlər görüləcək. Azərbaycanın düşmənləri bunu bilir, görür, bilməlidir və görməlidirlər. Məhz buna görə bizə qarşı edilən istənilən təxribat cavabsız qalmır, hər bir təxribata layiqli cavab verilir, istər hərbi cavab, istər siyasi cavab. Bu gün Azərbaycan o ölkələrdəndir ki, öz müqəddəratını özü müəyyən edir, heç kimdən asılı deyil və olmayacaq, öz sözünü açıq deyir və müstəqil siyasət aparır. Yəni bizim ölkəmiz, sözün əsl mənasında, müstəqil ölkədir, çünki müstəqil siyasət aparmaq iqtidarındadır və bizə bu gücü verən ilk növbədə bizim hərbi potensialımızdır.

Biz İkinci Qarabağ müharibəsinə hazırlaşırdıq və bunu gizlətmirdik. Mən işğal dövründə dəfələrlə deyirdim ki, bizim üçün birinci vəzifə ərazimizin bərpasıdır, ərazi bütövlüyümüzün təmin edilməsidir. Deyirdim ki, əgər danışıqlar nəticə verməsə, biz güc tətbiq edərək öz tarixi torpaqlarımızı azad edəcəyik. Əfsuslar olsun ki, mənim sözlərimə bəziləri laqeyd yanaşdılar. Ermənistan və onun xarici havadarları hesab edirdilər ki, onlar bizim torpaqlarımızı işğal altında əbədi saxlayacaqlar. Biz onların məkrli planlarını alt-üst etdik. Müharibəyə hazırlaşdıq, düşmənə elə sarsıdıcı zərbə vurduq ki, düşmən bu günə qədər özünə gələ bilmir.

İkinci Qarabağ müharibəsindən sonra biz hərbi Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirməli idik. İkinci Qarabağ müharibəsindən sonra bölgədə gündəliyi müəyyən edən yenə də biz olduq. Bu gün regionda proseslər yenə də bizim təkliflərimiz əsasında cərəyan edir. Əgər Vətən müharibəsindən sonrakı birinci ayları götürsək, görərik ki, yenə də Ermənistanın havadarları bizə köhnə tezisləri qəbul etdirməyə çalışırdılar. Biz isə bunu qətiyyətlə rədd etdik və bu gün hər kəs görür ki, vaxtilə erməni işğalını əbədiləşdirmək üçün səylər göstərmiş Minsk qrupu artıq gündəlikdə yoxdur, tarixin arxivindədir. Hər kəs görür ki, vaxtilə Qarabağ erməniləri üçün hansısa xüsusi status tələb edən qüvvələr artıq tamamilə fərqli açıqlamalar verirlər. Görürük ki, vaxtilə "Qarabağ Ermənistandır və nöqtə" - deyən Ermənistan rəhbərləri indi mənim sözlərimi təkrarlayırlar: "Qarabağ Azərbaycandır!" Yəni bütün bunlar bizim son iki il yarım ərzində apardığımız siyasətin nəticəsidir. Bu məsələlər elə-belə yaranmır. Azərbaycan-Ermənistan şərti sərhəd istiqamətində baş vermiş hadisələr, ermənilərin yaşadıqları Qarabağ bölgəmizdə hərbi əməliyyatlar və iki ay əvvəl Ermənistan-Azərbaycan sərhədində, onun Laçın istiqamətində sərhəd-buraxılış məntəqəsinin yaradılması bizim çox güclü siyasi iradəmizin göstəricisidir. Yəni biz bütün addımlarımızı vahid proqram əsasında atmışıq. Əgər son iki il yarım ərzində baş vermiş hadisələr təhlil olunarsa, hər kəs görə bilər ki, hər bir addımımızın arxasında güclü siyasi iradə dayanmışdır, güc dayanmışdır, məntiq dayanmışdır, beynəlxalq hüquq dayanmışdır və hər növbəti addım əvvəlki addımın məntiqi davamı idi.

Bu gün biz öz şanlı Zəfərimizi siyasi və diplomatik müstəvidə daha da möhkəmləndirdik. Bu gün biz bölgədə söz sahibiyik. Bəziləri, o cümlədən Ermənistan və onun bəzi xarici himayədarları bizi qisasçılıqda ittiham edirlər. Tamamilə yalan bir tezisdir. Mən demişəm və müharibə dövründə demişəm ki, biz düşməndən qisasımızı döyüş meydanında alacağıq, şəhidlərimizin qanını döyüş meydanında alacağıq və belə də oldu.

*Ardı 4-cü səh.*

RƏSMİ DÖVLƏT QƏZETİ AZƏRBAYCAN

24 iyun 2023-cü il

# Sülhdən qaçanlar biabırçı məğlubiyyətə düçar olurlar

## Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV Ermənistana və onun havadarlarına son xəbərdarlığını etdi: "Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da"

## Prezident İlham Əliyevin çıxışı










*Əvvəli 3-cü səh.*

Azərbaycan Ordusu mülki əhaliyə qarşı müharibə aparmamışdır, bunu hər kəs bilir və görür.

Ermənistandan fərqli olaraq onların şəhərlərini "İsgəndər", "Toçka" və "Elbrus" raketləri ilə dağıtmamışıq. Azərbaycan Ordusu yüksək mənəvi xüsusiyyətlərə malikdir, Ali Baş Komandanın əmrlərini tam icra edir və icra edəcək. Ona görə bizi qisasçılıqda ittiham edənlər qoy gedib güzgüyə baxsınlar. Biz qisas yox, ədalət tələb edirik. Biz tələb edirik ki, haqq-ədalət qorunsun. Biz tələb edirik ki, bizim daxili işlərimizə heç kim müdaxilə etməsin. Biz tələb edirik ki, bütün ölkələr sözdə yox, əməldə bizim ərazi bütövlüyümüzə hörmətlə yanaşsınlar və belə olan halda biz də onların ərazi bütövlüyünə hörmətlə yanaşacağıq. Əks təqdirdə bizim də addımlarımız adekvat olacaq. Yenə də deyirəm, biz qisasımızı döyüş meydanında aldıq. Ancaq bununla bərabər, biz erməni vəhşiliklərini heç vaxt unutmamalıyıq. İşğal dövründə bizim şəhərlərimiz yerləyeksan edilmişdir. Tarixi abidələrimiz dağıdılmışdır. Bizim müqəddəs ocaqlarımız təhqir edilmiş və dağıdılmışdır. Bunu edən bizim mənfur qonşularımız idi. Buna göz yuman beynəlxalq aləm, beynəlxalq ictimaiyyət və indi hər gün Ermənistana baş çəkən rüşvətxor Avropa məmurları və deputatlarıdır. Onları bu ədalətsizliyə vadar edən nədir? İkili standartlar və rüşvət! Bunun başqa izahı ola bilməz. Gedirlər, bizim sərhədimizə yaxın yerlərdə şəkillər çəkdirirlər, bizə hansısa mesajlar ünvanlayırlar. Hünərləri varsa, gəlsinlər, yaxınlaşsınlar bizim sərhədimizə. O vaxtlar artıq tarixdə qaldı. Yenə də onların ayağını biz qırdıq. Çünki İkinci Qarabağ müharibəsindən sonra biz bunu unutmamışıq. Bəzi Avropa ölkələrinin rəsmi nümayəndələri bizim ərazimizə, Xankəndiyə icazəsiz soxulmuşdular. Mən o vaxt demişdim ki, əgər bizim bundan xəbərimiz olsaydı, onları buraxmayacaqdıq. Bu gün də deyirəm, hünəriniz varsa, gəlin, görək sonra axırınız nə olacaq?

Bu gün bizə qarşı aparılan çirkin kampaniyanın heç bir əhəmiyyəti yoxdur və olmayacaq. Bizim iradəmizə heç kim təsir edə bilməz. Əgər Vətən müharibəsi dövründə bizim iradəmizə heç kim təsir edə bilmədisə, bu gün təbii ki, heç kim təsir edə bilməz. Yenə də deyirəm, biz haqq-ədaləti tələb edirik. Bu gün Ermənistanla aparılan sülh danışıqlarının yekunlaşması həm bizə lazımdır, həm də daha çox Ermənistana lazımdır. Bu sülh anlaşması beynəlxalq hüququn norma və prinsipləri əsasında imzalanmalıdır. Bu sülh anlaşmasında postmüharibə reallıqları nəzərə alınmalıdır. Bu təbiidir. Biz qalib gəlmişik, biz qan tökmüşük, şəhidlər vermişik. Allah bütün şəhidlərimizə rəhmət eləsin! Biz öz torpağımızda müharibə aparmışıq və bu gün öz torpağımızda yaşayırıq və yaşayacağıq.

Bizim şərtlərimiz bundan ibarətdir. Ermənistan keçən ilin oktyabr ayında rəsmən Azərbaycanın ərazi bütövlüyünü tanıyıb. Mən dedim ki, bu sözlər kifayət deyil, daha dəqiq sözlər deyilməlidir və keçən ay artıq bir daha rəsmən nəinki ərazi bütövlüyümüz Ermənistan tərəfindən tanınıb, hətta Azərbaycan ərazisinin parametrləri də qeyd olunub. Yəni bu, müsbətə doğru atılan bir addımdır. Ancaq bundan sonra həmin bu ifadələr kağız üzərində də olmalıdır və Ermənistan buna imza atmalıdır. Belə olan halda Cənubi Qafqazda uzunmüddətli sülh yarana bilər. Əks təqdirdə sülh olmayacaq.

Eyni zamanda bizim şərtlərimizdən biri Zəngəzur dəhlizinin açılmasıdır. Bu bizim haqlı tələbimizdir. Xüsusilə nəzərə alsaq ki, Ermənistan 2020-ci il noyabrın 10-da imzaladığı kapitulyasiya aktında bu öhdəliyi öz üzərinə götürmüşdür. Ancaq bu günə qədər bu öhdəlik yerinə yetirilməyib. Digər şərtimiz odur ki, Ermənistan ordusunun silahlı birləşmələri Qarabağ bölgəsindən çıxarılmalıdır. Bu da Ermənistanın üzərinə götürdüyü öhdəliklərdən biridir. Bu da icra edilmir.

Biz hələlik özümüzü təmkinli aparırıq. Son iki il yarım ərzində biz bir neçə dəfə məcbur olub Ermənistan tərəfinə öz gücümüzü göstərmişik, birincisi, onların hərbi təxribatlarına cavab olaraq. İkincisi, onlara bir siqnal göndərmişik ki, özlərini yaxşı aparmasalar, öz imzalarına hörmət etməsələr, nəticə onlar üçün acınacaqlı olacaq. Ona görə hələ də özümüzü təmkinli aparırıq. Biz heç vaxt tələskənliyə yol verməmişik, buna ehtiyac yoxdur. Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da. Dünya ictimaiyyəti artıq birmənalı şəkildə Qarabağı Azərbaycanın ayrılmaz hissəsi kimi tanıyır. Biz gözləyə bilərik. Yenə də deyirəm, biz tələsmirik. Bu gün biz azad edilmiş torpaqlarda geniş quruculuq işləri ilə məşğuluq. Biz keçmiş köçkünləri öz dədə-baba torpaqlarına qaytarırıq. Biz Ermənistanla sərhəd boyunca əlverişli mövqelərə sahibik. Biz o mövqelərdə möhkəmlənirik. Strateji yüksəkliklərdə olmağımız bizə strateji üstünlük təmin edir. Yenə də deyirəm, biz son iki il yarım ərzində ordumuzu böyük dərəcədə gücləndirmişik. Əgər bütün bu amilləri Ermənistan və onun arxasında dayanan xarici qohumları başa düşmürlərsə, onda günah onların boynundadır.

Bu gün Qarabağda və Şərqi Zəngəzurda genişmiqyaslı quruculuq işləri aparılır. Keçmiş məcburi köçkünlər öz dədə-baba torpaqlarına qaytarılır. Onlarla görüşlər əsnasında mən demişdim ki, siz öz torpaqlarınıza qayıdacaqsınız, belə də oldu. Demişdim, biz heç vaxt imkan verməyik ki, ərazimizdə ikinci erməni dövləti yaradılsın, belə də oldu. Biz demişdik ki, düşməni torpaqlarımızdan qovacağıq, düşməni torpaqlarımızdan qovduq, Azərbaycan Bayrağını bizim tarixi torpaqlarımızda qaldırdıq. Yəni bu, böyük tarixi nailiyyətdir. Bu şanlı tarix Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır.

Əziz hərbçilər, bildiyiniz kimi, Azərbaycan xalqı bu il Ulu Öndər Heydər Əliyevin 100 illiyini qeyd edir. Ulu Öndərin Azərbaycan Ordusunun formalaşmasında xüsusi rolu vardır. Hələ sovet dövründə Naxçıvanski adına Hərbi Məktəbin yaradılması məhz bu məqsədi güdürdü ki, Azərbaycanda peşəkar zabit təbəqəsi yaransın.

Ulu Öndərin doğum günündə, 100 illiyində mən Şuşada idim. Mən atamın doğum gününü Şuşada qeyd etmişəm və hesab edirəm ki, bu addımda böyük məna var. Şuşa Qarabağın tacıdır. Şuşa azad olunandan sonra Ermənistan dövləti və hökuməti öz məğlubiyyətini qəbul etməyə məcbur olmuşdur. Şuşa bizim gücümüzün, əyilməz ruhumuzun, qəhrəman hərbçilərimizin şücaətinin, qəhrəmanlığının təcəssümüdür.

Bu gözəl bayram ərəfəsində mən sizi bir daha qarşıdan gələn Silahlı Qüvvələr Günü münasibətilə təbrik etmək istəyirəm. Azərbaycan Ordusuna yeni uğurlar, yeni qələbələr arzulayıram.

Yaşasın Azərbaycan Ordusu! Qarabağ Azərbaycandır!

*Ardı 5-ci səh.*

# Sülhdən qaçanlar biabırçı məğlubiyyətə düçar olurlar

## Müzəffər Ali Baş Komandan İLHAM ƏLİYEV Ermənistana və onun havadarlarına son xəbərdarlığını etdi: "Bu gün güc də bizim tərəfimizdədir, zaman da bizim mövqeyimizi gücləndirir, beynəlxalq hüquq da"







Əvvəli 4-cü səh.

Sonra komando hərbi hissəsinə Döyüş bayrağının verilməsi haqqında təqdimat oxundu.

Müzəffər Ali Baş Komandan İlham Əliyev Döyüş bayrağını hərbi hissənin komandirinə təqdim etdi. Komando andiçmə mərasimindən sonra şəxsi heyət Döyüş bayrağı ilə təntənəli marşın sədaları altında tribunanın önündən keçdi.

Bundan sonra Ali Baş Komandana komando bölmələrinin silahlanmasında olan kiçik və iriçaplı silahlar, zirehli avtomobil və xüsusi texnika, o cümlədən artilleriya, kəşfiyyat, mühəndis, rabitə və digər döyüş vasitələri, eləcə də zərbə dronları və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları nümayiş etdirildi.

Dövlət başçısı dağçılıq qülləsi və kəşfiyyat cığırında komandoların nümunəvi məşqlərini izlədi. Sonda əsgər yeməkxanasına baxış zamanı komandoların ərzaq payı normalarına uyğun ərzaq nümunələri nümayiş etdirildi.





## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 202 — QƏRAR — Bakı şəhəri, 21 iyun 2023-cü il

### "Daşınmaz əmlak üzərində hüquqların dövlət qeydiyyatı üçün sənədlərin qəbulu, yoxlanılması və verilməsinin prosedur Qaydaları"nın və "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın təsdiq edilməsi barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarında dəyişiklik edilməsi haqqında

Azərbaycan Respublikası Konstitusiyasının 119-cu maddəsinin səkkizinci abzasını rəhbər tutaraq, Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 5 oktyabr tarixli 319 nömrəli Qərarı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, № 10, maddə 1233; 2016, № 8, maddə 1434, № 10, maddə 1718; 2017, № 2, maddə 317, № 5, maddə 993, № 10, maddə 1927, № 12 (II kitab), maddələr 2485, 2540; 2018, № 4, maddə 790, № 8, maddə 1803, № 10, maddə 2167; 2019, № 3, maddələr 555, 566, № 5, maddə 967, № 7, maddə 1325; 2021, № 3, maddə 296, № 12, maddə 1510) ilə təsdiq edilmiş 2 nömrəli əlavə - "Daşınmaz əmlakın təsvirinə, bu əmlak üzərində dövlət reyestrində qeydə alınmış hüquqlara və onların məhdudlaşdırılmasına (yüklülüyünə) dair arayışın verilməsi haqqında Təlimat"ın 7-ci hissəsi aşağıdakı redaksiyada verilsin:

**"7. Hüquq sahibinin əmlakına qanun və ya vəsiyyət əsasında vərəsəlik hüququ olan şəxslərə arayışın verilməsi**

7.1. Qanunun 8-ci maddəsində göstərilmiş əsaslara görə daşınmaz əmlak üzərində mülkiyyət və digər əşya hüquqları əldə etmiş şəxs həmin hüququ təsdiq edən daşınmaz əmlakın dövlət reyestrindən çıxarış (bundan sonra - çıxarış) almadan öldükdə onun notarius tərəfindən müəyyən edilən qanun və ya vəsiyyət üzrə vərəsələrinin müraciəti əsasında hüququn ölmüş şəxsə məxsus olması haqqında bu Təlimatın 7.3-cü bəndində göstərilən məzmunda ərazi idarəsinin rəhbərliyi tərəfindən müvafiq elektron imza ilə təsdiqlənmiş elektron arayış verilir. Hüquqların dövlət qeydiyyatı haqqında çıxarış həmin arayış əsasında verilmiş vərəsəlik sənədlərini təqdim edən vərəsənin adına rəsmiləşdirilir.

7.2. Bu Təlimatın 7.1-ci bəndində nəzərdə tutulmuş elektron arayış "Elektron hökumət" portalında yerləşdirilir və həmin arayış notariusun və hüquq sahibinin elektron üsulla real vaxt rejimində əldə etmələri imkanı təmin olunur.

7.3. Elektron arayışda aşağıdakılar göstərilir:

7.3.1. ərizəçinin soyadı, adı, atasının adı;

7.3.2. ərizəçinin təqdim etdiyi hüquqmüəyyənedici sənədlər haqqında məlumat;

7.3.3. mərhumun soyadı, adı, atasının adı;

7.3.4. daşınmaz əmlakın ünvanı;

7.3.5. daşınmaz əmlakın əsas göstəriciləri;

7.3.6. daşınmaz əmlakın adı;

7.3.7. daşınmaz əmlak üzərində hüququn növü;

7.3.8. arayışın notariat ofisində vərəsəliyin rəsmiləşdirilməsi üçün tərtib olunduğu barədə qeyd;

7.3.9. dövlət reyestrində elektron arayışı təsdiq edən vəzifəli şəxsin vəzifəsi, gücləndirilmiş elektron imzası, soyadı və adı.".

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 206 — QƏRAR — Bakı şəhəri, 23 iyun 2023-cü il

### Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddətinin uzadılması barədə

"Sanitariya-epidemioloji salamatlıq haqqında" Azərbaycan Respublikası Qanununun 25-ci maddəsinə və Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 28 fevral tarixli 73-1 nömrəli Qərarı ilə təsdiq edilmiş "Yoluxucu, parazitar və kütləvi qeyri-yoluxucu xəstəliklərin əmələ gəlməsi, yaxud yayılması təhlükəsi yarandıqda karantin-təşkilat, profilaktika və digər zəruri tədbirlərin görülməsi Qaydaları"na əsasən Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Koronavirus (COVID-19) infeksiyasının ölkə ərazisində yayılmasının, onun törədəbiləcəyi fəsadların qarşısının alınması məqsədilə Azərbaycan Respublikasının ərazisində xüsusi karantin rejiminin müddəti 2023-cü il 2 oktyabr saat 06:00-dək uzadılsın.

2. "Xüsusi karantin rejimi ilə bağlı əlavə tədbirlər barədə" Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 12 sentyabr tarixli 336 nömrəli Qərarının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2020, № 9, maddələr 1209, 1231, № 10, maddələr 1274, 1275, 1278, 1283, 1298, 1314, 1315, № 11, maddələr 1387, 1394, № 12 (V kitab), maddələr 1588, 1592, 1612; 2021, № 1, maddələr 92, 106, № 3, maddələr 267, 290, 291, № 4, maddə 403, № 5, maddə 530, № 6 (IV kitab), maddələr 683, 692, № 7, maddələr 868, 882, № 8, maddə 974, № 9, maddə 1079, № 10, maddə 1191, № 12, maddələr 1514, 1524; 2022, № 2, maddə 176, № 3, maddə 258, № 4, maddə 417, № 6, maddə 673, № 8, maddə 1012, № 10, maddə 1225, № 12, maddə 1554; 2023, № 2, maddə 328, № 3, maddə 443, № 4, maddə 595) 1.1-ci bəndində "1 iyul" sözləri "2 oktyabr" sözləri ilə əvəz edilsin.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

## Azərbaycan Respublikasının Nazirlər Kabineti

№ 203 — QƏRAR — Bakı şəhəri, 22 iyun 2023-cü il

### "Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin Siyahısı"nın təsdiq edilməsi haqqında

"Gömrük tarifi haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2022-ci il 27 dekabr tarixli 767-VIQD nömrəli Qanununun tətbiqi və "Gömrük tarifi haqqında" Azərbaycan Respublikası Qanununun tətbiqi barədə" Azərbaycan Respublikası Prezidentinin 2013-cü il 4 iyul tarixli 936 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2023-cü il 26 yanvar tarixli 2000 nömrəli Fərmanının 2.1-ci bəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. "Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin Siyahısı" təsdiq edilsin (əlavə olunur).

2. Bu Qərar 2023-cü il 1 yanvar tarixindən tətbiq edilir və 2025-ci il 1 yanvar tarixinədək qüvvədədir.

*Əli ƏSƏDOV,*
*Azərbaycan Respublikasının Baş naziri*

*Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2023-cü il 22 iyun tarixli 203 nömrəli Qərarı ilə təsdiq edilmişdir.*

### Dövlət ümumi təhsil müəssisələri tərəfindən idxalı gömrük rüsumlarından azad edilən avadanlıq, cihaz, qurğu və təhsil fəaliyyəti məqsədilə digər vasitələrin siyahısı

| Sıra №-si | XİF MN kodu | Mal mövqelərinin adı |
|---|---|---|
| 1. | 2509 00 000 0 | Təbaşir |
| 2. | 3213 90 000 0 | Həb, tübik, bankalar, flakonlar, tabaqlar və ya analoji formalarda və ya qablaşmalarda olan, rəssamlar, tələbələr tərəfindən istifadə edilən və ya lövhələrin tərtibatı üçün boyalar, təzələmə üçün boyalar, asudə vaxtlarda istifadə üçün boyalar və analoji məhsullar: digərləri |
| 3. | 3407 00 000 0 | Uşaqlar üçün plastilin də daxil olmaqla, yapma üçün pastalar; pərakəndə satış üçün dəst, bağlamalar şəklində qablaşdırılmış və ya lövhəciklər şəklində, nalşəkilli formada, dördyanlı uzunsov tirlər və ya analoji formalarda "diş müalicəsi mumu" və ya dişlərin surətini çıxarmaq üçün tərkiblər; gips əsasında (susuzlaşdırılmış gips və ya kalsium sulfat) hazırlanmış digər diş müalicəsi məqsədləri üçün tərkiblər |
| 4. | 3506 10 000 0 | Netto çəkisi 1 kq-dan çox olmayan pərakəndə satış üçün qablaşmalarda yapışqanlar və ya adqezivlər kimi istifadəyə yararlı məhsullar |
| 5. | 3926 10 000 0 | Dəftərxana və ya məktəb ləvazimatları |
| 6. | 4016 92 000 0 | Dəftərxana pozanları |
| 7. | 7017 20 000 0 | Laborator, gigiyenik və ya əczaçılıq məqsədləri üçün 0°C-dən 300°C-yə qədər temperatur intervalında xətti genişlənmə əmsalı hər bir Kelvinə 5x10-6-dan çox olmayan digər şüşədən, dərəcələnmiş və ya dərəcələnməmiş, kalibrlənmiş və kalibrlənməmiş qablar |
| 8. | 8213 00 000 0 | Qayçılar, dərzi qayçıları və analoji qayçılar və onlar üçün tiyələr |
| 9. | 8214 10 000 0 | Kağızlar üçün, konvertlərin açılması və mətnlərin pozulub təmizlənməsi üçün bıçaqlar, karandaşların yonulması üçün karandaşçərtənlər və onlar üçün tiyələr |
| 10. | 8305 90 000 0 | Hissələr də daxil olmaqla, qiymətsiz metallardan dəftərxana sıxacları və dəmirbəndlər, indeksli kartoçka göstəriciləri və analoji dəftərxana məmulatları |
| 11. | 8424 10 000 0 | Doldurulmuş və ya doldurulmamış yanğınsöndürənlər |
| 12. | 9017 80 100 0 | Ölçü çubuqları və ruletkalar, bölgülü xətkeşlər |
| 13. | 9023 00 800 0 | Başqa istifadə üçün yararsız olan, nümayiş məqsədləri üçün istifadə olunan (məsələn, tədris və ya sərgiləmə üçün) cihazlar, aparatura və modellər: digərləri |
| 14. | 9030 33 990 0 | Gərginliyin, cərəyan qüvvəsinin, müqavimətin və ya gücün ölçülməsi və ya ona nəzarət üçün digər cihazlar və aparatura (yarımkeçirici lövhələrin və ya cihazların ölçülməsi və ya yoxlanılması üçün nəzərdə tutulmuş cihaz və aparaturalardan başqa): qeydedici qurğusuz, digərləri |
| 15. | 9208 90 000 0 | Yarmarka orqanları, mexaniki şarmankalar, mexaniki oxuyan quşlar, musiqili mişarlar və bu qrupun başqa yerində adları çəkilməyən və ya daxil olunmayan digər musiqi alətləri; ov heyvanları və quşları çağırmaq üçün hər cür düdüklər və alətlər; fitlər, şeypurlar və digər nəfəsli siqnal alətləri |
| 16. | 9405 11 002 0 | Açıq ictimai yerlərin və ya nəqliyyat magistrallarının işıqlandırılması üçün istifadə olunan işıq avadanlığından başqa asma və ya divar üçün çilçıraqlar və digər elektrik işıqlandırma avadanlığı: şüşədən |
| 17. | 9506 40 000 0 | Masaüstü tennis üçün inventar və avadanlıq |
| 18. | 9506 61 000 0 | Tennis topları |
| 19. | 9506 62 000 0 | Hava ilə doldurulan toplar |
| 20. | 9603 30 100 0 | Rəssam fırçaları və yazı fırçaları |
| 21. | 9608 10 990 0 | Maye mürəkkəbli və dəyişilən baloncuklular istisna olmaqla, diyircəkli qələmlər |
| 22. | 9608 20 000 0 | Ucluğu fetrdən və digər məsaməli materiallardan olan qələmlər və markerlər |

## Milli Məclisin iclasında

# Dərman vasitələrinin qeydiyyatı prosesi təkmilləşdirilir

*Əvvəli 1-ci səh.*

İyunun 20-də nümayəndə heyətinin Avstriya Milli Şurasının sədri Volfqanq Sobotka, iyunun 21-də isə Avstriya Federal Şurasının sədri Günter Kovaç ilə görüşləri olub. Görüşlərdə Azərbaycanla Avstriya arasında dostluq və tərəfdaşlıq münasibətlərinin səviyyəsindən məmnunluq ifadə edilib. Azərbaycanın Avropa üçün mühüm iqtisadi tərəfdaş, etibarlı enerji təchizatçısı olduğu xüsusilə vurğulanıb.

Görüşlərdə iki ölkənin parlamentləri arasında əməkdaşlığın inkişaf perspektivləri barədə fikir mübadiləsi aparılıb. Azərbaycanın demokratik dövlət quruculuğu tarixi, multikulturalizm ənənələri, 44 günlük Vətən müharibəsindən sonra yaranmış vəziyyət, işğaldan azad edilmiş ərazilərdə həyata keçirilən bərpa və quruculuq işləri, Böyük qayıdış proqramının icrasına başlanılması, bölgədə sülh və sabitliyin təmin olunması üçün Azərbaycanın göstərdiyi səylər barədə həmsöhbətlərə geniş məlumat verilib.

Avstriya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvləri ilə görüşdə iki ölkənin parlamentləri arasında iş birliyinin dərinləşdirilməsi məsələləri də nəzərdən keçirilib. Nümayəndə heyətinin üzvləri Vyanada yerləşən İmperiya Xəzinəsi Muzeyində də olublar.

Spiker Sahibə Qafarova çıxışının sonunda Avstriya Respublikasına rəsmi səfərin uğurlu keçdiyini qeyd edib və bununla əlaqədar Milli Məclisin nümayəndə heyətinin hər bir üzvünə minnətdarlığını bildirib.

Gündəliyin təsdiqindən sonra iclasda cari məsələlərlə bağlı müzakirələr aparılıb. Deputatlar Elnur Allahverdiyev, Fazil Mustafa, Elman Nəsirov, Sevinc Hüseynova, Sahib Alıyev, Tural Gəncəliyev, Arzu Nağıyev, Razi Nurullayev, Ceyhun Məmmədov, Azər Badamov, Aqil Abbas, Etibar Əliyev çıxış edərək Gədəbəy rayonunun Söyüdlü kəndində bir qrup şəxsin kənd ərazisində süni gölün tikintisinə etirazı zamanı baş verənlərə münasibət bildiriblər və gündəmdə olan bəzi mövzularla bağlı fikirlərini səsləndiriblər.

Millət vəkilləri Gədəbəy rayonunun Söyüdlü kəndində monitorinqlərin aparılmasını və mövcud vəziyyətin qiymətləndirilməsini təmin etmək üçün hökumət komissiyasının yaradılmasının hadisələrin obyektiv araşdırılmasına xidmət etdiyini vurğulayıblar. Hadisələrdən öz məkrli niyyətləri üçün yararlanmağa çalışanların hərəkətlərini pisləyərək bildiriblər ki, sosial şəbəkələrdə məsuliyyətsiz, qızışdırıcı şərhlər yazan şəxslərin və hadisələrdən öz məkrli niyyətləri üçün istifadə etməyə çalışan dairələrin əsas hədəfi nifaq salmaqdır.

Sonra spiker Sahibə Qafarova diqqətə çatdırıb ki, iclasda 33 məsələ müzakirəyə çıxarılıb. O qeyd edib ki, gündəliyin ilk 2 məsələsi üçüncü oxunuşda olan qanun layihələridir. Milli Məclisin Sədri birinci məsələ olan Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsinə (üçüncü oxunuş) Əmək və sosial siyasət komitəsində baxıldığını deyib və sənədlə bağlı məlumat vermək üçün sözü komitə sədri Musa Quliyevə təqdim edib. Musa Quliyev diqqətə çatdırıb ki, Əmək Məcəlləsinin 64-cü maddəsinə təklif olunan dəyişikliklər barədə birinci və ikinci oxunuşlarda ətraflı məlumat verilib, ötən müddət ərzində qanun layihəsi ilə bağlı komitəyə təkliflər, digər fərqli rəylər daxil olmayıb və layihənin mətnində dəyişiklik edilməyib.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul olunub.

Gündəliyin ikinci məsələsi - İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (üçüncü oxunuş) ilə bağlı məlumatı Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli diqqətə çatdırıb. Sənəd barədə birinci və ikinci oxunuşlarda geniş məlumatın verildiyini qeyd edən birinci vitse-spiker layihədə İnzibati Xətalar Məcəlləsinə təklif edilən dəyişikliklərdə yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi məqsədi ilə nəqliyyat vasitələrinin sərxoş vəziyyətdə, xüsusilə narkotik vasitələrdən, psixotrop maddələrdən və ya güclü təsir edən digər maddələrdən istifadə etməklə idarə edilməsinə görə inzibati məsuliyyətin sərtləşdirilməsi nəzərdə tutulur.

Qanun layihəsi səsə qoyularaq üçüncü oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin 3-cü məsələsindən başlayaraq növbəti 27 qanun layihəsinin cənab Prezidentin bir məktubu ilə parlamentə daxil olduğunu və mahiyyətcə bir-birinə bağlı olduğunu deyib. Spiker diqqətə çatdırıb ki, bu qanun layihələri bank işi sahəsində tənzimləmənin və nəzarətin təkmilləşdirilməsi, maliyyə bazarlarının sabitliyinin təmin olunması və bu sahədə xidmətlərdən istifadə edənlərin hüquqlarının qorunması ilə bağlıdır. Spiker ikinci oxunuşda müzakirəyə təqdim olunan qanun layihələrinə parlamentin üç komitəsində baxıldığını söyləyib və əvvəlcə komitələrin təqdimatlarını dinləməyi, sonra müzakirələrin birgə aparılmasını təklif edib. Sahibə Qafarova diqqətə çatdırıb ki, bu 27 məsələdən 20-nə İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsində baxılıb və həmin layihələrlə bağlı məlumat vermək üçün komitənin sədri Tahir Mirkişiliyə söz verib.

Tahir Mirkişili gündəlikdəki 20 məsələ - "Azərbaycan Respublikasının Mərkəzi Bankı haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Banklar haqqında" qanunda dəyişiklik edilməsi barədə, Vergi Məcəlləsində dəyişiklik edilməsi haqqında, eyni zamanda "Banklar haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 140-VQD nömrəli, "Bank olmayan kredit təşkilatları haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 141-VQD nömrəli, "Kredit ittifaqları haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 142-VQD nömrəli, "Poçt haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 143-VQD nömrəli, "Sığorta fəaliyyəti haqqında" Qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 144-VQD nömrəli, "Qiymətli kağızlar bazarı haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 145-VQD nömrəli və "İnvestisiya fondları haqqında" qanunda dəyişikliklər edilməsi barədə" 2016-cı il 4 mart tarixli 146-VQD nömrəli qanunlarında dəyişiklik edilməsi haqqında, həmçinin "Bank olmayan kredit təşkilatları haqqında", "Kredit ittifaqları haqqında", "Poçt haqqında", "Əmanətlərin sığortalanması haqqında", "Kredit büroları haqqında", "Valyuta tənzimi haqqında", "İnvestisiya fondları haqqında", "Qiymətli kağızlar bazarı haqqında", "Sığorta fəaliyyəti haqqında", "İcbari sığortalar haqqında", "İstehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta haqqında", "Sahibkarlıq fəaliyyəti haqqında", "Hesablama Palatası haqqında", "Mühasibat uçotu haqqında", "Dövlət satınalmaları haqqında" və "Auditor xidməti haqqında" qanunlarda dəyişiklik edilməsi barədə qanun layihələri ilə bağlı məlumatı diqqətə çatdırıb.

Komitə sədri bildirib ki, təqdim olunan qanun layihələri Azərbaycan Prezidentinin "Maliyyə xidmətləri bazarında tənzimləmə və nəzarət sisteminin idarəedilməsinin təkmilləşdirilməsi haqqında" 2019-cu il 28 noyabr tarixli Sərəncamına uyğun olaraq hazırlanıb. Sərəncama əsasən, Azərbaycan Respublikasının qanunlarında maliyyə bazarlarına nəzarət orqanının müəyyən edilmiş səlahiyyətləri, o cümlədən onun maliyyə xidmətləri bazarında lisenziyalaşdırma, tənzimləmə və nəzarət, investorların və maliyyə xidmətləri istehlakçılarının hüquqlarının qorunması sahəsində vəzifə və hüquqları Mərkəzi Banka verilir.

Dəyişikliklərin əsas məqsədləri Mərkəzi Bankın maliyyə bazarlarında meqarequlyator funksiyasının təsbit olunması, maliyyə bazarlarında tənzimləmə və nəzarət sisteminin müasir çağırışlara uyğun olaraq təkmilləşdirilməsi, idarəetmə prosedurlarının sadələşdirilməsi, bankçılıq sahəsində müstəqilliyin artırılması, informasiya təhlükəsizliyinin gücləndirilməsi və vətəndaşlara maliyyə əlçatanlığının artırılmasıdır. Komitə sədri həmçinin Milli Məclisin Sədrinin tapşırığına əsasən, dəyişikliklərin geniş ictimaiyyətə çatdırılması ilə bağlı görülən işlərdən danışıb.

Sonra spiker Sahibə Qafarova bildirib ki, 6 məsələyə - 5-ci, 7-ci, 21-ci, 26-cı, 28-ci və 29-cu məsələlərə parlamentin Hüquq siyasəti və dövlət quruculuğu komitəsində baxılıb. O, layihələrə dair məlumat vermək üçün sözü Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənova təqdim edib.

Nurlan Həsənov uyğunlaşdırma və dəqiqləşdirmə xarakterli dəyişikliklərin nəzərdə tutulduğu Mülki Məcəllədə dəyişiklik edilməsi haqqında, İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında, "Publik hüquqi şəxslər haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" qanunda dəyişiklik edilməsi barədə, "Cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında" qanunda dəyişiklik edilməsi barədə və "İcra haqqında" Qanunda dəyişiklik edilməsi barədə qanun layihələri ilə əlaqədar bildirib ki, məsələlərə dair birinci oxunuşda ətraflı məlumat verilib və sənədlərlə bağlı komitəyə heç bir irad və təklif daxil olmayıb.

Sonra Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov gündəliyin 20-ci məsələsi - "Tibbi sığorta haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi ilə bağlı məlumat verib. O, layihənin birinci oxunuşundan sonra komitəyə heç bir irad və təklif daxil olmadığını bildirib və həmkarlarından qanun layihəsini ikinci oxunuşda da dəstəkləməyi xahiş edib.

İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədri Tahir Mirkişili təqdim edilən son 7 qanun layihəsi barədə rəhbərlik etdiyi komitənin rəyini diqqətə çatdırıb.

Qanun layihələrinin müzakirələrində deputatlar Vahid Əhmədov, Razi Nurullayev, Əli Məsimli, Sədaqət Vəliyeva, Aqil Abbas çıxış edərək sənədlərlə bağlı fikirlərini və bəzi qeydlərini səsləndiriblər.

Milli Bankın sədri Taleh Kazımovun deputatların qanun layihələri ilə bağlı qaldırdıqları məsələlərə, səsləndirdikləri suallaraətraflı izahatı dinlənildikdən sonra 27 qanun layihəsi ayrı-ayrılıqda səsə qoyularaq ikinci oxunuşda qəbul edilib.

Milli Məclisin Sədri Sahibə Qafarova gündəliyin son 4 məsələsinin birinci oxunuşda müzakirəyə çıxarılan qanun layihələri olduğunu diqqətə çatdırıb.

İclasda Səhiyyə komitəsinin sədri Əhliman Əmiraslanov "Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. O bildirib ki, layihə səhiyyə və tibbi sığorta sahəsində idarəetmənin təkmilləşdirilməsi ilə bağlı bir sıra tədbirləri və Azərbaycan Respublikası Prezidentinin müvafiq fərman və sərəncamlarının icrasını təmin etmək məqsədilə hazırlanıb.

Qeyd edilib ki, layihədə dünya təcrübəsi əsas götürülərək dərman vasitələrinin beynəlxalq qeydiyyatının tanınması nəzərdə tutulub. Dərman vasitələrinin sadələşdirilmiş ekspertizanın nəticələrinə əsasən, beynəlxalq qeydiyyatı tanınaraq onların dövlət reyestrinə daxil edilməsi üçün tələb olunan sənədlərin sayı azaldılıb, sadələşdirilib və qeydiyyat prosedurlarının müddətləri qısaldılıb. Dərman vasitələrinin Azərbaycana gətirilməsi məqsədilə qeydiyyatı üçün müraciət edə biləcək tərəflərin dairəsi genişləndirilib və bütövlükdə qeydiyyat prosesi sürətləndirilib.

Nəzərə çatdırılıb ki, sənəddə dərman vasitələrinin dövriyyəsinə nəzarəti təmin etmək məqsədilə Səhiyyə Nazirliyi tərəfindən aparılan elektron təqib və izləmə sisteminin tətbiq edilməsi, dərman vasitələrinə reseptlərin elektron formada yazılmasına imkan verən sistemin tətbiqi nəzərdə tutulub. Layihəyə əsasən, dövlət qeydiyyatına alınmış dərman vasitələrinin tənzimlənən qiymətlərdən yuxarı qiymətlərlə satılması qadağan olunur.

Bildirilib ki, ümumilikdə, qanun layihəsində 7 istiqamət üzrə dəyişikliklər nəzərdə tutulub, 4 yeni maddənin əlavə olunması və 11 maddə üzrə 86 dəyişikliyin edilməsi təklif olunur. Dəyişikliklərin qəbul edilməsi dərmanların dövlət qeydiyyatı prosedurunun optimallaşdırılmasına, ölkə ərazisinə idxal edilən keyfiyyətli dərman vasitələrinin artmasına, ölkədə yarana biləcək dərman qıtlığının aradan qaldırılmasına, o cümlədən dərman vasitələrinin dövlət qeydiyyatına alınmasının sadələşdirilməsinə səbəb olacaqdır.

Komitə sədrləri Tahir Mirkişili, Qənirə Paşayeva, deputatlardan Tahir Kərimli, Etibar Əliyev, Azər Badamov, Razi Nurullayev, Rəşad Mahmudov çıxış edərək məsələ barədə fikirlərini açıqlayıblar, bəzi təkliflərini səsləndiriblər.

Parlamentin komitə sədri Əhliman Əmiraslanov, səhiyyə nazirinin müavini Rasim İsmayılov çıxışlara münasibət bildirdikdən sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Sonra Milli Məclis Sədrinin birinci müavini, Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin sədri Əli Hüseynli İnzibati Xətalar Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi (birinci oxunuş) barədə məlumat verib. Birinci vitse-spiker bildirib ki, qanun layihəsi "Siyasi partiyalar haqqında" 2022-ci il 16 dekabr tarixli Qanunun icrası ilə bağlı hazırlanıb. Sənəddə həmin qanunda müəyyən edilmiş hüquq normalarının pozulmasına görə inzibati məsuliyyətin təkmilləşdirilməsi nəzərdə tutulub. Qeyd edilib ki, məcəllənin yeni redaksiyada təqdim edilmiş 184-cü maddəsində adıçəkilən qanuna uyğun olaraq müvafiq düzəlişlər aparılıb.

Komitə sədri Siyavuş Novruzov, deputat Tahir Kərimli məsələ barədə fikirlərini səsləndirdikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nurlan Həsənov "Konstitusiya Məhkəməsi haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsini (birinci oxunuş) təqdim edib. Bildirilib ki, qanunun 4 maddəsinə dəyişiklik edilməsi təklif olunur. Dəyişikliklər mövcud normaların qanunvericilik sisteminə uyğunlaşdırılması və təkmilləşdirilməsi məqsədi ilə hazırlanıb.

Diqqətə çatdırılıb ki, qanunun 11-ci maddəsinə təklif olunan dəyişiklik Konstitusiya Məhkəməsinin hakimlərinə aid yaş senzi ilə bağlı məhdudiyyətin aradan qaldırılmasını, 32-ci və 34-cü maddələrə dair dəyişikliklər Konstitusiya Məhkəməsi tərəfindən sorğu və şikayətlərə baxılması şərtlərinin dəqiqləşdirilməsini, 35-ci maddəyə təklif olunan dəyişiklik isə Konstitusiya Məhkəməsinə verilən sorğu, müraciət və şikayətlərə qoşulan sənədlərin siyahısına sorğu və müraciətlərlə əlaqədar şərh edilməsi xahiş olunan normativ-hüquqi aktın surətinin əlavə edilməsini nəzərdə tutur.

Deputat Əminə Ağazadə məsələ ilə bağlı fikirlərini açıqladıqdan sonra qanun layihəsi səsə qoyularaq birinci oxunuşda qəbul edilib.

Hüquq siyasəti və dövlət quruculuğu komitəsinin üzvü Nizami Səfərov "Cinayət törətmiş şəxslərin verilməsi (ekstradisiya) haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsinin (birinci oxunuş) mahiyyəti barədə danışıb. Bildirilib ki, Azərbaycan Prezidenti tərəfindən qanunvericilik təşəbbüsü qaydasında təqdim olunmuş layihədə bu qanuna 1.4-cü maddənin əlavə edilməsi təklif olunur. Əlavəyə əsasən, "Azərbaycan Respublikasının səlahiyyətli orqanı" dedikdə, Azərbaycan Respublikasının Baş Prokurorluğu və müvafiq icra hakimiyyəti orqanı nəzərdə tutulur. Bunula yanaşı, qanunun bir sıra maddələrində "müvafiq icra hakimiyyəti" sözləri "səlahiyyətli" sözü ilə əvəz edilir.

Deputat Etibar Əliyev sənədlə bağlı bəzi qeydlərini söylədikdən sonra qanun layihəsi birinci oxunuşda qəbul edilib.

***Rəşad CƏFƏRLİ,***
***"Azərbaycan"***







# Heydər Əliyev İli 2023



# Müasir Azərbaycan tarixində daha bir şərəfli gün

## Ulu Öndər Heydər Əliyev 1993-cü il iyunun 24-də Prezidentin səlahiyyətlərini icra etməyə başlamışdır

Xalqların taleyində şəxsiyyət amilinin rolu müstəsnadır. Bir danılmaz həqiqət də var ki, insanların eyni məkanda, eyni milli xüsusiyyətlərin, dilin, adət-ənənələrin təmsilçiləri kimi dünyaya gəlmələri hələ xalqın formalaşması, milli dövlətin təşəkkülü və öz mövcudluğunu qoruması üçün kifayət deyil.

Düzdür, bütün bunlar xalqın formalaşması prosesinin təməl prinsipləri kimi çox ciddi önəm daşıyır. Amma insanların bu birliyinə ümumi istiqamət vermək, kütləni xalq kimi formalaşdırmaq üçün qəlbi vətən sevgisi ilə dolu qətiyyətli bir liderin önə çıxması mütləqdir.

XX əsrin ən parlaq şəxsiyyətlərindən olan Heydər Əliyevin Azərbaycan tarixindəki rolu, ilk növbədə bu missiyanı həyata keçirmiş lider kimi önəmlidir. Ulu Öndər müstəqil Azərbaycan dövlətçiliyinin ideolojisiyası, iqtisadi əsaslarını yaratmışdır. Azərbaycan xalqının müstəqil və güclü dövlətə sahib olmaq arzusunu praktik şəkildə gerçəkləşdirmişdir. Ümummilli Liderin xalqımız və dövlətimiz qarşısındakı ən mühüm xidmətlərindən biri də azərbaycançılıq düşüncəsini bütün dünya azərbaycanlılarını birləşdirən ideologiya halına gətirməsi, müstəqil Azərbaycan dövlətinin ideya əsasına çevirməsidir.

Heydər Əliyevin həyat və fəaliyyəti Azərbaycanın dövlətçilik irsinin çox əhəmiyyətli bir hissəsini təşkil edir. Bu böyük dövlət adamı məzmunca bir-birindən xeyli fərqlənən iki dövrdə Azərbaycana rəhbərlik etmiş, fərqli şəraitə, zamanın bir-birinə bənzəməyən çağırışlarına rəğmən, vətəninin inkişafı üçün mövcud imkanları maksimum reallaşdıra bilmişdir. Ümummilli Lider gələcəklə bağlı aydın, məqsədyönlü strategiyalar müəyyənləşdirə, xalqın potensialını böyük məqsədlərə doğru səfərbər edə bilirdi. Vəziyyətləri idarə etmək ustalığı, xalqın, dövlətin maraqlarını hər bir situasiyada qorumaq əzmi, ən doğru qərarları vermək fəhmi, insanlara təsir gücü, nüfuzu, qətiyyəti, mətinliyi, məqsədyönlülüyü Heydər Əliyev böyüklüyünün ayrı-ayrı cəhətləridir.

Malik olduğu ali şəxsiyyət meyarları, Azərbaycan xalqının və dövlətinin taleyində oynadığı müstəsna rol Heydər Əliyevin həyatı ilə bağlı müxtəlif əlamətdar günləri tariximizə əbədi həkk etmişdir. Bu günlər, tarixlər müstəqil Azərbaycanın dövlətçilik salnaməsinin şərəfli səhifələridir. 24 iyun 1993-cü il tarixi də belə günlərdəndir.

Düz 30 il əvvəl xalqın təkidli tələbi ilə Naxçıvandan Bakıya qayıtdıqdan və 15 iyun 1993-cü ildə Azərbaycan Ali Sovetinin Sədri seçildikdən sonra Ulu Öndər Ali Sovetin 24 iyun 1993-cü il tarixli iclasının qərarı ilə Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərinin icrasına başlamışdır.

Ulu Öndərin ölkənin gələcək taleyinə görə bu ağır məsuliyyəti üzərinə götürdüyü həmin dövr Azərbaycanın müstəqillik tarixinin, demək olar ki, ən çətin və təzadlarla dolu mərhələsi idi. Ötən əsrin 80-ci illərinin sonlarından başlayaraq Azərbaycanda yaşanan hakimiyyət böhranı, ölkənin ali rəhbərliyindəki təsadüfi şəxslərin bir-birini əvəz etməsi, hakimiyyət uğrunda aparılan savaşlar müstəqilliyimizi təhlükə altında qoymuşdu. Xüsusilə dövlət idarəetməsində heç bir təcrübəsi olmayan AXC-Müsavat cütlüyünün birillik hakimiyyəti dövrü ölkəyə faciə yaşadırdı. Azərbaycanda xaos, anarxiya, özbaşınalıq baş alıb gedirdi. Sosial-iqtisadi böhran getdikcə güclənir, əhalinin durumu ağırlaşır, yanlış xarici siyasət ucbatından bütün qonşularla münasibətlər korlandığından ölkəyə daxili və xarici təhdidlər artır, təcavüzkar Ermənistan xarici havadarlarının himayəsi ilə torpaqlarımızı işğal edirdi. Bunun müqabilində Bakıda vəzifə kürsüləri uğrunda çəkişmələr səngimək bilmirdi. Təsadüf nəticəsində ölkə idarəçiliyini ələ keçirmiş naşı siyasətbazlar cəbhə bölgəsində həlak olan şəhidlərimizin, yurdlarını itirən qaçqın və məcburi köçkünlərimizin, ümumən isə xalqımızın faciələri, ağrı-acıları hesabına hakimiyyətdən daha çox pay qoparmaq, kürsülərini möhkəmləndirmək istəyirdilər. Qurulu infrastruktur dağıdılır, dəyər-dəyməzinə satılıb sovrulurdu.

Tarixən çoxmillətli ölkə olan Azərbaycanda xarici qüvvələrin əli ilə separatizm ocaqları qalanırdı. Müstəqilliyini yenicə qazanmış ölkə parçalanaraq dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzə idi. Hakimiyyət uğrunda mübarizə aparan və hər biri qanunsuz silahlı qruplaşmalara malik olan siyasi qüvvələr Azərbaycanı vətəndaş müharibəsinə sürükləyirdi. Artıq vəziyyət idarəolunmaz hala gəlib çatmışdı. Bu hadisələr həm də AXC-Müsavat cütlüyünün bacarıqsızlığını, səriştəsizliyini ortaya qoymuşdu. Məhz belə bir zamanda Azərbaycan xalqı hər zaman olduğu kimi yenə də ən müdrik qərarını verdi. Həmin dövr Naxçıvan Ali Məclisinin sədri vəzifəsində çalışan Heydər Əliyevin ölkənin ali hakimiyyətinə qayıdışını israrla tələb etməyə başladı. Azərbaycanın ozamankı rəhbərliyi böyük dövlət xadimini Bakıya dəvət etməyə məcbur oldu. 1993-cü ilin 15 iyununda Ulu Öndər Heydər Əliyev Azərbaycan Respublikası Ali Sovetinin sədri seçildi. Qısa müddətdə parlamentin ruhu kökündən dəyişdi. Siyasi həyatda tərəqqi dövrü başladı.

Bir neçə gün sonra isə Prezident Əbülfəz Elçibəy xalqın və dövlətin ən çətin günlər yaşamasına baxmayaraq, heç kimə xəbər vermədən doğulduğu kəndə qaçdı. Ölkə başsız vəziyyətdə, taleyin ümidinə qaldığından 1993-cü ilin 24 iyununda Ümummilli Lider Heydər Əliyev Ali Sovetin qərarı ilə Azərbaycan Respublikasının Prezidenti səlahiyyətlərinin icrasını öz üzərinə götürməli oldu. Həmin gün Ulu Öndərin bununla bağlı xalqa müraciəti bir növ müstəqil Azərbaycan dövlətinə sadiqlik andı idi. Zaman keçdikcə Ümummilli Lider ən ağır məqamlarda yenə də daim öz andına sadiq qalacaq, Azərbaycanın müstəqilliyinin daimiliyini, əbədiliyini, dönməzliyini təmin edəcəkdi.

"Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi özüm üçün əsas vəzifələrdən biri hesab edirəm", - deyə Ümummilli Lider həmin müraciətində vurğulayırdı. Heydər Əliyev qeyd edirdi ki, Azərbaycan Respublikasının dövlət müstəqilliyi 1918-ci ildə yaranmış ilk Azərbaycan Demokratik Respublikasının ənənələri əsasında, müasir tələblərlə, dünyada gedən proseslərlə bağlı olaraq təmin olunmalıdır: "Bu sahədə mən daim çalışacağam və heç kəsin şübhəsi olmasın ki, ömrümün bundan sonrakı hissəsini, harada olursa-olsun yalnız və yalnız Azərbaycan Respublikasının müstəqil dövlət kimi inkişaf etməsinə həsr edəcəyəm. Bununla əlaqədar olaraq bildirmək istəyirəm ki, mənim fikrimcə, Azərbaycan Respublikası, bundan sonra onun başına nə gəlirsə-gəlsin, müstəqilliyini itirməyəcək, yenidən heç bir dövlətin tərkibinə daxil olmayacaq, heç bir başqa dövlətin əsarəti altına düşməyəcək".

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə müstəqil Azərbaycanın qazandığı tarixi nailiyyətlər bu böyük dövlət adamının qətiyyətinin, mətinliyinin, verdiyi bütün sözləri tutmasının sübutudur.

Heydər Əliyevin Azərbaycan Ali Sovetinə rəhbərlik etdiyi qısamüddətli dövr, bu zaman kəsiyində əldə edilən əhəmiyyətli nəticələr, verilən qətiyyətli qərarlar təhlil baxımından geniş tədqiqat mövzusudur. Ulu Öndər Ali Sovetin Sədri kimi ölkənin ali qanunverici orqanının fəaliyyətini demokratik prinsiplər, aşkarlıq, xalq qarşısında hesabatlılıq əsasında qurdu. Milli Məclisin iclaslarının, mətbuat konfranslarının, respublika əhəmiyyətli müşavirələrin birbaşa yayımla televiziya ekranlarına verilməsini təmin etdi. Xalqın ölkədəki vəziyyəti olduğu kimi görə bilməsinə şərait yaratdı, həmçinin ictimai-siyasi həyatdakı gərginliyin aradan qaldırılması üçün lazımi tədbirlər gördü.

Qısa müddət ərzində Ümummilli Lider Azərbaycan parlamentinə yeni bir ruh, müasir parlamentarizm ənənələri gətirdi, müstəqilliyini yenicə əldə etmiş ölkənin demokratik parlamenti necə olmalıdır, bunun mükəmməl örnəyini yaratdı.

Heydər Əliyev zəngin dövlətçilik təcrübəsi ilə Azərbaycan Milli Məclisində yüksək siyasi mədəniyyət formalaşdırdı. Özünəməxsus iclas aparmaq tərzi, təmkini, fikirlərini dəqiq əsaslandırması, edilən çıxışların əsas məğzini tutmaq, qeyri-müəyyən məqamları əlavə suallarla aydınlaşdırmaq, tərəflər arasında sivil müzakirələr qurmaq, müzakirələri ümumiləşdirib ortaya faydalı nəticələr qoymaq bacarığı ilə əsl ustad dərsləri keçdi.

Hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğu məsələləri məhz Heydər Əliyevin ölkə parlamentinə rəhbərlik etdiyi dövrdən gündəmə gəldi. Çünki Ulu Öndər yaxşı bilirdi ki, Azərbaycan xalqının arzularındakı dövləti, cəmiyyəti qurmaqdan ötrü ilk növbədə qanunun aliliyi təmin olunmalı, buna maneə yaradan əngəllər ortadan götürülməlidir. Cəmiyyətdə ictimai-siyasi sabitlik təmin edilməli, hər bir vətəndaş özünü tam təhlükəsiz şəraitdə duymalı, onun naşı adamların idarəçiliyi dövründə dövlətə, hökumətə sarsılmış inamı bərpa olunmalıdır.

Ulu Öndər ölkədəki qeyri-qanuni silahlı birləşmələrin fəaliyyətinə son qoydu. Nəzarətsizlik dövründə münbit şərait görüb baş qaldıran kriminal ünsürləri zərərsizləşdirdi, ölkədə cinayətkarlığın və hüquq pozuntularının qarşısını aldı, ictimai-siyasi sabitlik üçün dayanıqlı bir sistem qurdu. Heydər Əliyev xarici qüvvələrin təhriki ilə ölkədə baş qaldıran separatizm meyillərinin genişlənərək Azərbaycan dövlətçiliyini sarsıtmasına imkan vermədi. Bunun bariz nümunələrindən biri 1993-cü ilin 7 avqustunda ölkənin cənub bölgəsində elan edilmiş qondarma "Talış-Muğan Respublikası" ilə bağlı görülən tədbirlər idi. Xarici qüvvələr tərəfindən Azərbaycanın o dövrdəki kövrək müstəqilliyinə qəsd olan bu avantüranın qarşısını almaqdan ötrü Heydər Əliyev hər zamankı kimi, yenə də sağlam insanlara, sağlam düşüncəyə söykəndi. Avqustun 13-də parlamentdə həmin bölgədən olan deputatlarla, ziyalılarla, ağsaqqallarla görüşüb vəziyyəti müzakirə etdi. Avqustun 17-də isə Milli Məclis "Azərbaycan Respublikasının Lənkəran, Astara, Masallı, Lerik, Yardımlı, Cəlilabad və Biləsuvar rayonlarında yaranmış vəziyyət haqqında" qərar qəbul edərək "Talış-Muğan Respublikası" avantürasına siyasi qiymət verdi, əhalinin dəstəyi ilə bu bədnam iddiaya son qoyuldu.

Ümummilli Lider Azərbaycanı zamanın ağır təlatümlərindən xilas edərək rəvan, aydın inkişaf yoluna çıxardı. 1994-cü ildə cəbhə bölgəsində atəşkəsə nail olmaqla ölkənin sosial-iqtisadi problemlərinin həlli, ordu quruculuğu, demokratik hüquqi dövlətin əsaslarının formalaşması üçün zaman qazandı. Bu müddətdə Azərbaycanın gələcək inkişafına doğru strateji addımlar atıldı. 1994-cü il sentyabrın 20-də - çox ağır siyasi şəraitdə ölkənin dayanıqlı iqtisadi inkişafını və beynəlxalq əhəmiyyətini müəyyən edən "Əsrin müqaviləsi" imzalandı. Dünyanın 6 ölkəsinin 10 şirkəti ilə bağlanmış "Əsrin müqaviləsi" istər əhatə etdiyi karbohidrogen ehtiyatlarının miqdarına, istərsə də Azərbaycana qoyulan sərmayələrin həcminə görə bütün dünyada bağlanmış ən iri sazişlərdən idi. Bu müqavilə sonrakı mərhələlərdə 19 ölkənin 41 neft şirkəti ilə 26 müqavilənin də imzalanmasına yol açdı. Ölkəmizin sosial-iqtisadi inkişafına, mövcud çətinliklərin aradan qaldırılmasına böyük təkan verdi. Təsadüfi deyil ki, Ümummilli Lider bu müqavilənin tarixi əhəmiyyətini belə qiymətləndirirdi: "Əsrin müqaviləsi ilə qoyduğumuz təməl XXI əsrdə Azərbaycan xalqının inkişafı, firavan həyatı, müstəqil Azərbaycan dövlətinin suverenliyinin daha da möhkəmlənməsi üçün gözəl imkanlar yaradır və inanıram ki, XXI əsr müstəqil Azərbaycan dövləti üçün ən xoşbəxt dövr olacaqdır".

Bu müqavilənin yaratdığı mühit, gələcəyə inam hüquqi dövlət quruculuğu proseslərini daha böyük inamla həyata keçirməyə imkan yaratdı. 1995-ci ilin noyabrında layihəsi Ümummilli Liderin rəhbərliyi ilə hazırlanmış müstəqil Azərbaycan Respublikasının Konstitusiyası ümumxalq səsverməsi əsasında qəbul edildi. Cəmiyyət həyatının bütün əhəmiyyətli sahələri üzrə müstəqillik dövrünün, müasir zamanın çağırışlarına uyğun mükəmməl qanunvericilik bazası formalaşdırıldı. Demokratik inkişafı əngəlləyən silahlı dövlət çevrilişi cəhdlərinə son qoyuldu. Seçki ənənələri formalaşdırıldı. Konstitusiyanın qəbulu ilə eyni gündə parlament seçkiləri keçirildi. Azərbaycan dövlətinin beynəlxalq əlaqələri genişləndirildi, ölkənin dünya birliyinə inteqrasiyası gücləndi. Siyasi islahatlara start verildi, çoxpartiyalı sistem yarandı və cəmiyyətdə siyasi mədəniyyət inkişaf etməyə başladı. Azərbaycan qısa zamanda dünyanın nüfuzlu beynəlxalq təşkilatlarına üzv oldu. Səsimiz, sözümüz beynəlxalq aləmdə eşidilməyə başladı. İşğalçı Ermənistanın xaricdəki havadarlarının əli ilə ətrafımızda yaratdığı informasiya blokadası yarıldı.

Ulu Öndər cəmiyyətimizdə milli birliyi təmin etdi. Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq ideologiyası milli mənsubiyyətindən, dilindən, inancından, yaşadığı məkandan asılı olmayaraq Azərbaycanı özünə tarixi vətən bilən hər kəsin tapındığı mənəvi ünvan, işıqlı məfkurə oldu və bu düşüncə dövlətimizin qüdrətlənməsində müstəsna rol oynadı.

Ümummilli Lider ordu quruculuğunu da böyük mətanətlə həyata keçirdi. Bu böyük dövlət adamının çağırışı ilə başqa ölkələrdəki peşəkar Azərbaycan zabitlərinin Vətənə axını başladı. Nizami ordu quruldu, ölkənin sosial-iqtisadi imkanları artdıqca Azərbaycan ordusunun da təchizatı, inkişafı genişləndi, döyüş qabiliyyəti yüksəldi.

"Azərbaycan dövlətinin strateji yolu yalnız demokratiya, sərbəst iqtisadiyyat prinsiplərinin bərqərar olması, bazar iqtisadiyyatı və sahibkarlığın inkişafıdır", - deyən Heydər Əliyev azad bazar iqtisadiyyatı psinsiplərinin cəmiyyətdə öz yerini tutmasına nail oldu, azad sahibkarların güclü hamisinə çevrildi, ölkədə sahibkarlar sinfi, orta təbəqə formalaşdı. Heydər Əliyev hər bir ölkənin siyasi müstəqilliyi üçün müstəsna dərəcədə mühüm əhəmiyyət daşıyan iqtisadi müstəqilliyi təmin etdi. Bu gün tarixinin ən qüdrətli dövrünə gəlib çatmış Azərbaycanın Zəfər yolu Ulu Öndərin xalqın təkidli tələbi ilə ali hakimiyyətə qayıdıb 24 iyun 1993-cü ildə ölkə rəhbəri kimi Azərbaycanın gələcək taleyinə görə bütün məsuliyyəti öz üzərinə götürdüyü o çətin və şərəfli günlərdən başlanır. Prezident İlham Əliyevin rəhbərliyi ilə tarixinin ən böyük nailiyyətlərini qazanmış qüdrətli Azərbaycan dövlətinin varlığı, Qələbəsi, uğurları Ümummilli Liderin xatirəsinə ucalan ən dəyərli abidə, xalqımızın 30 il əvvəl verdiyi qərarların müdrikliyinə ən böyük, ədalətli sübutdur.

*İradə ƏLİYEVA,*
*"Azərbaycan"*

# Heydər Əliyevin Prezident səlahiyyətlərini üzərinə götürməsi tarixi zərurət idi



Hər bir Azərbaycan vətəndaşı 1990-1993-cü illərdə respublikamızın həyatında baş verənləri - o hakimiyyətsizlik, anarxiya, qarşıdurma illərini yaxşı xatırlayır, o günlər barədə oxuyur, öyrənir və əlbəttə ki, təəssüflənir. Ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi, ayrı-ayrı siyasi qüvvələrin hakimiyyət hərisliyi torpaqlarımızın işğalına, dövlətin talanmasına zəmin yaradır, insanların əxlaqına, mənəviyyatına ağır zərbə vururdu.

Hakimiyyətdə olanların heç biri respublikanın gələcəyi, insanların taleyi barədə düşünmürdü. Qoluzorlular, silaha güvənənlər, ətrafına az-çox adam toplamağa qadir olanlar ancaq özünə vəzifə axtarır, çapıb talamağı daha üstün tuturdular.

Xalq tərəddüdlər, çaxnaşmalar içərisində boğulurdu. Torpaqlarımızın günbəgün işğala məruz qaldığı, ölkəni iqtisadi-siyasi böhran bürüdüyü o günlərdə respublika vətəndaşlarının Ulu Öndər Heydər Əliyevə arxalanması, onu xilaskar kimi qəbul etmələri əsassız deyildi. Çünki Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969-1982-ci illərdə, istər Moskvada yüksək vəzifə daşıdığı günlərdə hər an, hər saat respublika sakinləri ilə bir olmuş, doğma vətəninin yüksəlişi, xalqının xoşbəxtliyi naminə bütün çətinliklərə qatlaşmış, Azərbaycanı tanıtmış, şöhrətləndirmişdi.

Xalq öz liderinə inanırdı, ona hörmət, etimad bəsləyirdi. Heydər Əliyevin 1993-cü il iyunun 15-də xalqın təkidi ilə yenidən hakimiyyətə gətirilməsi məhz onun xalq, vətən qarşısındakı böyük xidmətlərindən, müdrikliyindən, qətiyyətindən, təşkilatçılığından, insanlara sevgi və məhəbbətindən qaynaqlanırdı. İnsanlar yaxşı bilirdilər ki, respublikanı düşdüyü ağır vəziyyətdən, iqtisadi və siyasi böhrandan, qarşıdurmalardan, vətəndaş müharibəsindən yalnız Heydər Əliyev kimi torpağına, xalqına bağlı, uzaqgörən bir rəhbər xilas edə bilər.

O dövrdə - hadisələrin cilovlanmadığı, silahlı birləşmələrin heç kimə tabe olmaq istəmədiyi, qarşıdurmaların səngimədiyi, hakimiyyət hərisliyinin artdığı günlərdə Prezident Əbülfəz Elçibəyin birdən-birə Bakını tərk etməsi, Kələkiyə getməsi vəziyyəti daha da kəskinləşdirdi. Heydər Əliyevin Prezident səlahiyyətlərini Ali Sovetin sədri kimi öz üzərinə götürməsi tarixi zərurət, həm də qanunauyğun idi. Ancaq bu, möhkəm iradə, hadisələri nizama salmaq, təlatümlərin qarşısını almaq üçün bacarıq, reallıqları qiymətləndirmək ustalığı tələb edirdi.

Ulu Öndər Heydər Əliyev bu vəzifələri o vaxt çox məharətlə həyata keçirdi, hər anın dəyərini verdi və üzərinə ağır bir öhdəlik götürdü.

24 iyun 1993-cü ildə Prezident səlahiyyətlərini icra etməyə başlaması ilə əlaqədar Ulu Öndər deyirdi: "Azərbaycan Respublikasının bugünkü ağır, mürəkkəb və gərgin vəziyyətini tam məsuliyyətlə dərk edirəm. Bu vəzifəni üzərimə götürərək öz məsuliyyətimi anlayıram və bunların hamısını rəhbər tutaraq əlimdən gələni edəcəyəm. Ali Sovetin sədri kimi Azərbaycan xalqının tarixi nailiyyəti olan Azərbaycan Respublikasının dövlət müstəqilliyini qorumağı, möhkəmləndirməyi, inkişaf etdirməyi, özüm üçün əsas vəzifələrdən biri hesab edirəm".

Ümummilli Liderin dediyi və qarşıya qoyduğu bütün vəzifələrə həyatı bahasına, gərgin zəhməti, zehni, düşüncəsi, bacarığı sayəsində əməl etdi. Azərbaycanın müstəqilliyini qoruyub saxladı. Vətəndaş müharibəsinin, parçalanma təhlükəsinin qarşısını aldı. Ölkədə ictimai-siyasi sabitlik yaratdı. Çox böyük iqtisadi, beynəlxalq əhəmiyyətə malik layihələri reallaşdırdı, gələcəyimizə uğurlu yol açdı.

Bu günlərimiz, nailiyyətlərimiz məhz Heydər Əliyevin bünövrəsini qoyduğu o günlərin üzərində inkişaf edir, sürətlənir, uğur gətirir. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev, xalqımız o günləri unutmamaqla, Heydər Əliyev ideyalarına sadiq olduqlarını bugünkü möhtəşəm quruculuq işləri ilə nümayiş etdirir, Qarabağ zəfərlərindən, tarixi qələbələrimizdən qürur duyduqlarını və Ulu Öndərimizin adını, əməllərini əbədi olaraq yaşatdıqlarını, ucaltdıqlarını əməlləri, hünərləri ilə sübuta yetirirlər.

*Tahir RZAYEV,*
*Milli Məclisin Aqrar siyasət komitəsinin sədri*

# Daxili Qoşunların Ali Hərbi Məktəbində növbəti buraxılış olub

İyunun 23-də Daxili İşlər Nazirliyi (DİN) Daxili Qoşunlarının Ali Hərbi Məktəbində 2022-2023-cü tədris ilinin buraxılışına həsr olunan təntənəli mərasim keçirilib. Tədbirdə respublikanın daxili işlər naziri general-polkovnik Vilayət Eyvazov iştirak edib.

Bu barədə AZƏRTAC-a Daxili İşlər Nazirliyinin Mətbuat xidmətindən məlumat verilib. Bildirilib ki, əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və vətənimizin suverenliyi, ərazi bütövlüyü uğrunda şəhid olmuş, xidməti-döyüş tapşırıqlarının yerinə yetirilməsi zamanı canlarından keçən hərbi qulluqçuların və polis əməkdaşlarının əziz xatirəsi yad edilib, Azərbaycanın Dövlət Himni səsləndirilib.






Nazir müavini - Daxili Qoşunların komandanı Şahin Məmmədov məzunların buraxılış mərasiminin Ali Hərbi Məktəbin həyatında əlamətdar hadisələrdən biri olduğunu diqqətə çatdıraraq təhsil müəssisəsinin inkişaf yolu, maddi-texniki və tədris bazasının gücləndirilməsi istiqamətində görülən işlər və qarşıda duran vəzifələr barədə məruzə edib.

Gənc zabitlər önündə çıxış edən nazir Vilayət Eyvazov məmnunluqla bildirib ki, Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Qoşunların döyüş hazırlığının yüksəldilməsini daim nəzarətdə saxlayıb, müasir silah və texnika ilə təminatı, şəxsi heyətinin sosial müdafiəsinin gücləndirilməsi sahəsində bir çox vacib qərarlar qəbul edib. Məhz bu ali diqqətin nəticəsidir ki, Daxili Qoşunlar qarşıya qoyulan xidməti-döyüş tapşırıqlarını yüksək səviyyədə yerinə yetirməyə qadir silahlı birləşməyə çevrilib.

General-polkovnik Vilayət Eyvazov Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi altında möhtəşəm qələbə ilə nəticələnən Vətən müharibəsində Daxili Qoşunların hərbi qulluqçularının da ön cəbhədə iştirak edərək qəhrəmanlıq və vətənpərvərlik nümunələri göstərdiyini, onların arasında Ali Hərbi Məktəbin də məzunlarının olması bu təhsil müəssisəsində kursantların dövlətə, xalqa, hərbi anda sədaqət ruhunda formalaşması üçün ortaya qoyulmuş əzmkar fəaliyyətin əyani təsdiqi olduğunu vurğulayıb.

O, qələbədən sonrakı dövrdə Daxili Qoşunların şəxsi heyətinin işğaldan azad edilmiş ərazilərdə polis əməkdaşları ilə birgə xidmət etmələrini də məmnunluqla qeyd edib.

Məzunların həyatında yeni bir dövrün başladığını nəzərə çatdıran daxili işlər naziri gənc zabitləri, onların valideynlərini və yaxınlarını Ali Hərbi Məktəbi müvəffəqiyyətlə bitirmələri münasibətilə təbrik edib, Daxili Qoşunlar üçün peşəkar kadrlar hazırlayan bu ali təhsil ocağının rəhbərliyinə və zabit-müəllim heyətinə təşəkkürünü bildirib, fəaliyyətlərində onlara uğurlar arzulayıb.

Nazir Vilayət Eyvazov əmin olduğunu bildirib ki, daxili işlər orqanlarının və Daxili Qoşunların şəxsi heyəti bundan sonra da xalqa və dövlətə sədaqətlə xidmət edəcək, qarşıya qoyulmuş tapşırıqların tam və layiqincə yerinə yetirilməsi üçün var qüvvəsi ilə çalışacaq.

Sonda gənc zabitlər təntənəli marşla tribunanın qarşısından keçiblər.

# Qarabağdakı ermənilərin ən optimal yolu

## Normal həyatlarını təmin etmələri baxımından onların yeganə seçimi Azərbaycan qanunlarına tabe olmaqdır

30 illik işğal dövründə Hayastanın vəhşicəsinə taladığı, daşı-daş üstündə qoymadığı Qarabağ və Şərqi Zəngəzur Azərbaycan dövləti tərəfindən sürətlə dirçəldilir. Dədə-baba yurdlarından zorla didərgin salınan və onilliklər boyu məcburi köçkünlüyün əzab və məhrumiyyətlərinə sinə gərən yüzminlərlə vətəndaşımızın tarixi torpaqlarına qayıdışı üçün o ərazilərdə nəhəng bərpa və quruculuq işləri aparılır. İnfrastruktur qurulur, yollar, tunellər çəkilir, beynəlxalq hava limanları tikilib istifadəyə verilir, "ağıllı" kənd və şəhərlər salınır.

Aparılan sürətli tikinti-quruculuq işlərinin möhtəşəm bəhrəsidir ki, həm Qarabağa, həm də Şərqi Zəngəzura Böyük qayıdış gerçəkləşdirilib. Tərtərin Talış, Zəngilanın Ağalı kəndlərinin və Laçın şəhərinin sakinləri artıq doğma od-ocaqlarına qovuşublar.

Bir sözlə, keçmiş məcburi köçkün vətəndaşlarımızın öz yurdlarında xoşbəxt yaşamı üçün işğaldan azad edilən ərazilərimizdə yüksəksəviyyəli həyat şəraiti qurub yaradılır.

### "Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır"

Eyni zamanda dövlətimiz Qarabağda yaşayan erməni sakinlər üçün yüksək standartlara uyğun şərait qurmaqda, bu sakinlərimizin də ləyaqətli şəkildə yaşamalarını təmin etməkdə qərarlıdır.

"Qarabağ erməniləri Azərbaycan vətəndaşlarıdır, azlıqdır. Azərbaycan çoxmillətli ölkədir və Azərbaycanda bütün azlıqlar mədəniyyət, dil, həmçinin təhlükəsizlik də daxil olmaqla, eyni hüquq və üstünlüklərdən faydalanırlar. Biz Qarabağdakı erməni icmasının nümayəndələri ilə praktiki təmaslara başlamağa hazırıq", - deyən Prezident İlham Əliyevin fikrincə, Azərbaycanda məskunlaşmış bütün xalqların və etnik qrupların nümayəndələrinə daim bərabərhüquqlu münasibət göstərilir.

Eləcə də Azərbaycanın sülh gündəliyi ilə bağlı mövqeyi iki yanaşmadan ibarətdir: Azərbaycanla Hayastan arasında sülh müqaviləsinin imzalanması və Qarabağın erməni sakinləri ilə dialoqun həyata keçirilməsi.

Artıq bu istiqamətdə ölkəmiz praktiki addımlar da atıb. Belə ki, bu il martın 1-də Azərbaycan ərazilərində müvəqqəti yerləşdirilmiş Rusiya sülhməramlı kontingentinin qərargahında Qarabağda yaşayan erməni sakinlərin təmsilçiləri ilə birinci görüş baş tutub. Görüş zamanı Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğun olaraq Qarabağ bölgəsində yaşayan erməni sakinlərin Azərbaycan Respublikasına reinteqrasiyasına dair ilkin müzakirələr aparılıb.

Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Qarabağın erməni ictimaiyyətinin nümayəndələrini reinteqrasiya ilə bağlı təmasların davam etdirilməsi, habelə Qarabağda infrastruktur layihələrinin reallaşdırılması məsələlərinin müzakirəsi üçün ikinci görüşə dəvət edib.

### 30 il separatçıların girovluğunda

Qarabağdakı sadə ermənilər onilliklər boyudur ki, separatçıların əlində girov kimi yaşayırlar. Eyni zamanda Ermənistan tərəfi həmin insanların həyat şəraitlərinin yaxşılaşdırılması ilə bağlı heç bir real addım atmır, səfalət içərisində yaşayan bu insanlara kömək etmir, əksinə, həmin insanların adından istifadə edərək xaricdən aldığı maliyyə yardımlarını separatçılarla birgə yeyir.

Göründüyü kimi, nə separatçılardan, nə də Ermənistan rəhbərliyindən Qarabağda yaşayan ermənilərə nə indiyə qədər bir hay olub, nə də bundan sonra olacağı gözlənilir.

Hazırda da separatçılar Qarabağda yaşayan sadə ermənilərin cəmiyyətimizə reinteqrasiya olunmalarına çirkin yollarla əngəl olmağa çalışırlar.

Bu barədə Prezident İlham Əliyev bu ilin aprelində də Azərbaycan Televiziyasına müsahibəsində əminliyini bildirib ki, hazırda Qarabağda yaşayan erməni əhalisinin əksəriyyəti Azərbaycan vətəndaşlığını qəbul etməyə hazırdır: "Sadəcə olaraq, bu zəlilər, bu yırtıcı heyvanlar, separatçılar qoymurlar. Qoymurlar ki, bu insanlar rahat yaşasınlar, 30 il bunları girov kimi saxlayıblar".

Lakin zaman sürətlə axıb gedir və onların Azərbaycan tərəfinin bu humanist təkliflərindən maksimum yararlanmaqda faydaları olar. Çünki bu xoş fürsət bir daha onlara tanınmayacaq.

Müstəqillik Günündə Laçın şəhərinin sakinlərini doğma şəhərlərinə qovuşduran dövlət başçısı İlham Əliyev sakinlərlə görüşü zamanı da qətiyyətlə bildirdi ki, daha üçüncü dəvət olmayacaq. Ya özləri boyunlarını büküb gələcəklər, ya da ki, indi hadisələr başqa cür inkişaf edəcək.

Həmin gün qalib lider İlham Əliyev Laçından separatçılara həm acı aqibətlərini xatırlatdı, həm də onlara yeganə çıxış yollarını göstərdi.

"Sizin kitabınız bağlandı. "Miatsum" kitabı bağlandı, separatizmin kitabı bağlandı. Müstəqillik xülyası statusun dalınca getdi. Statusu isə biz hələ İkinci Qarabağ müharibəsi zamanı göndərmişik lazım olan yerə", - deyən Prezident söylədi ki, yeganə yol qalıb - Azərbaycan qanunlarına tabe olmaq, Azərbaycanın loyal normal vətəndaşı olmaq, öz dırnaqarası saxta dövlət atributlarını zibil yeşiyinə atmaq, "parlament"i buraxmaq.

### Baş verənləri dəyərləndirərək düzgün nəticə çıxarmalıdırlar

Hələlik isə, daim humanizmi əldə əsas tutan Azərbaycan dövləti, müdrik Azərbaycan Prezidenti səbir və dözüm nümayiş etdirərək Qarabağda yaşayan erməni sakinlərin tarixi həqiqətlərə dayanan reallığı qəbul etmələrini, özlərinin gəlib Azərbaycan bayrağı altında yaşamağa addım atacaqlarını gözləyir.

Məhz buna görə də dövlətimiz hər hansı başqa addım atmır və Qarabağda yaşayan erməni sakinlərin Vətən müharibəsinin üzərindən ötən iki il yarım müddət ərzində baş vermiş hadisələrdən özləri üçün düzgün nəticə çıxarmalarını gözləyir.

Onu da vurğulayaq ki, bəzi maraqlı xarici dairələr Qarabağda yaşayan erməni sakinlərlə bağlı Azərbaycana qarşı bəzi tələblər irəli sürməyə cəhd edirlər. Bu isə birmənalı olaraq Azərbaycanın daxili işinə qarışmaq deməkdir və qəbuledilməzdir.

Bu məsələ ilə bağlı ötən gün xarici işlər naziri Ceyhun Bayramov da bildirib ki, Azərbaycanın Qarabağ bölgəsində yaşayan ermənilərə təhlükəsizlik zəmanətləri verilməsi tələbi qeyri-zəruridir və Azərbaycanın daxili işlərinə qarışmaq cəhdidir: "Biz bir çox səbəblərə görə, belə bir ön şərti qəbul etmirik. Ən fundamental məsələ budur: bu daxili, suveren məsələdir".

Bütün bunlara görə də Qarabağda yaşayan sadə ermənilər separatçılara qarşı iradə göstərərək bu mənfurların onlardan Azərbaycana qarşı istifadə etmələrinə yol verməməlidirlər. Həmçinin onlar könüllü şəkildə Azərbaycan bayrağı altında, onun hüquqları ilə yaşamağa razı olduqlarını bildirərək, bununla həm də öz layiqli həyatlarının başlanğıcını qoymuş olarlar. Bu, onların gələcəyi üçün ən optimal yoldur və normal həyatlarını təmin etmələri baxımından yeganə variantları Azərbaycan qanunlarına tabe olmaqdır.

Yox, əgər bunu istəmirlərsə, necə deyərlər, yollar açıqdır və buyurub hara istəsələr gedə, ölkəmizi tərk edə bilərlər...

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

## Mərkəzi icra hakimiyyəti orqanlarının və digər idarəetmə qurumlarının rəhbərləri tərəfindən 2023-cü ilin iyul ayında şəhər və rayonlarda vətəndaşların qəbulu cədvəli

| S/n | Qəbulu keçirən mərkəzi icra hakimiyyəti orqanı və idarəetmə qurumunun rəhbəri | Qəbulun keçirildiyi şəhər, rayon | Əhatə olunan şəhər və rayonlar | Qəbulun keçirildiyi gün |
|---|---|---|---|---|
| 1. | **Ədliyyə naziri** Fikrət Məmmədov | **Xızı** | Xızı, Siyəzən, Şabran | **06** |
| 2. | **Fövqəladə hallar naziri** Kəmaləddin Heydərov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **07** |
| 3. | **Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri** Bahar Muradova | **Qax** | Qax, Şəki, Zaqatala, Balakən | **07** |
| 4. | **Elm və təhsil naziri** Emin Əmrullayev | **Lerik** | Lerik, Lənkəran, Astara | **10** |
| 5. | **Rəqəmsal inkişaf və nəqliyyat naziri** Rəşad Nəbiyev | **Qəbələ** | Qəbələ, Oğuz, İsmayıllı, Ağsu | **10** |
| 6. | **Baş prokuror** Kamran Əliyev | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **11** |
| 7. | **Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri** Mübariz Qurbanlı | **İsmayıllı** | İsmayıllı, Ağsu, Şamaxı, Qobustan | **12** |
| 8. | **Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin sədri** Anar Quliyev | **Şəmkir** | Şəmkir, Gədəbəy | **12** |
| 9. | **Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədri** Rövşən Rzayev | **Daşkəsən** | Daşkəsən, Göygöl | **12** |
| 10. | **Gənclər və idman naziri** Fərid Qayıbov | **Abşeron** | Abşeron, Zəngilan | **13** |
| 11. | **Ekologiya və təbii sərvətlər naziri** Muxtar Babayev | **Füzuli (Horadiz şəhəri)** | Füzuli, Beyləqan, Xocavənd | **14** |
| 12. | **Mədəniyyət naziri** Adil Kərimli | **Lənkəran** | Lənkəran, Astara, Lerik | **14** |
| 13. | **Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri** Zaur Mikayılov | **Göygöl** | Göygöl, Daşkəsən | **14** |
| 14. | **"Azəriqaz" İstehsalat Birliyinin baş direktoru** Ruslan Əliyev | **Sumqayıt** | Sumqayıt, Qubadlı | **17** |
| 15. | **Baş prokuror** Kamran Əliyev | **Biləsuvar** | Biləsuvar, Cəlilabad, Neftçala | **18** |
| 16. | **Daxili işlər naziri** Vilayət Eyvazov | **Mingəçevir** | Mingəçevir, Yevlax, Ağdaş, Ucar, Tərtər, Şuşa | **19** |
| 17. | **Qida Təhlükəsizliyi Agentliyinin sədri** Qoşqar Təhməzli | **Gədəbəy** | Gədəbəy, Şəmkir | **20** |
| 18. | **Energetika naziri** Pərviz Şahbazov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **21** |
| 19. | **İqtisadiyyat naziri** Mikayıl Cabbarov | **Qəbələ** | Qəbələ, Oğuz | **21** |
| 20. | **Kənd təsərrüfatı naziri** Məcnun Məmmədov | **Quba** | Quba, Qusar | **21** |
| 21. | **Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin rəisi** Mürsəl İbrahimov | **Şamaxı** | Şamaxı, Ağsu, İsmayıllı, Qobustan | **21** |
| 22. | **Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin sədri** Saleh Məmmədov | **İsmayıllı** | İsmayıllı, Ağsu | **21** |
| 23. | **İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin sədri** Zaur Əliyev | **Şəki** | Şəki, Qax | **21** |
| 24. | **"Azərişıq" ASC-nin sədri** Vüqar Əhmədov | **Ağdam (Quzanlı qəsəbəsi)** | Ağdam, Ağcabədi | **21** |
| 25. | **"Azəristiliktəchizat" ASC-nin sədrinin vəzifəsini müvəqqəti icra edən** İlham Mirzəliyev | **Balakən** | Balakən, Zaqatala | **21** |
| 26. | **Dövlət Gömrük Komitəsinin sədri** Şahin Bağırov | **Naxçıvan** | Naxçıvan, Babək, Culfa, Kəngərli, Ordubad, Sədərək, Şahbuz, Şərur | **22** |
| 27. | **Baş prokuror** Kamran Əliyev | **Tovuz** | Tovuz, Şəmkir, Gədəbəy, Ağstafa, Qazax | **24** |
| 28. | **Əmək və əhalinin sosial müdafiəsi naziri** Sahil Babayev | **Zaqatala** | Zaqatala, Balakən | **28** |

Vətəndaşların qəbulu müəyyən edilmiş günlərdə saat 10:00-da başlayır.

# Əlahiddə Ümumqoşun Orduda hərbi qulluqçular arasında atletika və gimnastika üzrə birincilik keçirilib

Əlahiddə Ümumqoşun Ordunun zabiti, polkovnik-leytenant Vahid Məmmədov birinciliyin şərtlərini və təhlükəsizlik qaydalarını iştirakçılara çatdırdıqdan sonra yarışa start verilib.



Müdafiə Nazirliyinin Mətbuat xidmətindən AZƏRTAC-a bildirilib ki, hərbi qulluqçuların sürət, çeviklik və dözümlülüyünü yoxlamaq, güclü idmançı və komandaları müəyyən etmək məqsədi ilə keçirilən birincilikdə 13 komanda üzrə 196 idmançı mübarizə aparıb. Atlet və gimnastlar turnikdə dartınma və aşaraq dayağa qalxma, paralelqollarda dayaq vəziyyətində qolların bükülüb açılması, uzunluğa və hündürlüyə tullanma, 100 və 3000 metr məsafəyə qaçış, 400 metr məsafəyə estafet qaçışı yarışlarında özlərini sınayıblar.

Ümumi nəticələrə əsasən komanda hesabında 1-ci və 3-cü yerlərdə xüsusi təyinatlılar, 2-ci yerdə isə motoatıcılar qərarlaşıb.

Fərdi hesabda qalib gələn idmançı hərbi qulluqçulara fəxri fərman, ilk üç pillədə qərarlaşan komandalara isə kubok və diplomlar təqdim edilib.

# Dərmanlar ucuzlaşacaqmı?

Milli Məclisin plenar iclasında "Dərman vasitələri haqqında" qanunda dəyişiklik edilməsi barədə qanun layihəsi birinci oxunuşda müzakirə edilib. Dəyişikliklərə əsasən, dərman vasitələrinin dövlət qeydiyyatının sadələşdirilməsi təklif olunur. Bəs, görəsən, bu dəyişiklik dərmanların qiymətinə təsir göstərəcəkmi?







Mövzu ilə bağlı mütəxəssislərin fikirlərini öyrəndik.

## Keyfiyyətə nəzarət asanlaşacaq

Milli Məclisin deputatı Rüfət Quliyev bildirib ki, ölkədə dərman vasitələrinin baha olduğunu nəzərə alaraq, "Dərman vasitələri haqqında" qanunda müəyyən dəyişikliklərin edilməsi zəruridir: "Xüsusilə Türkiyə ilə müqayisədə ölkəmizdə dərmanların qiyməti bahadır. Lakin nəzərə almaq lazımdır ki, qardaş ölkədə istifadə olunan dərmanların 85-90 faizi yerli istehsaldır. Sözsüz ki, qanuna nəzərdə tutulan dəyişikliklər ölkəmizdə dərman vasitələrinin qiymətlərinə də təsir göstərəcək. Ciddi ucuzlaşma müşahidə edilməsə də, müsbət təsiri çox olacaq. Dərman qiymətlərinin kifayət qədər ucuzlaşması üçün isə Azərbaycanda dərman istehsalına başlamaq lazımdır. Bu, qiymət artımının qarşısını almaq üçün ən alternativ seçimdir".

Deputatın sözlərinə görə, qanun layihəsinin qəbulu, həmçinin dərmanların dövlət qeydiyyatı və ekspertizası işini sadələşdirəcək: "Dəyişikliklərdə nəzərdə tutulub ki, dərman vasitələrinin beynəlxalq qeydiyyatı tanınaraq dövlət reyestrinə daxil edilməsi üçün tələb olunan sənədlərin sayı azaldılsın. Bu, prosesi sadələşdirməklə yanaşı, həm də sürətləndirəcək. Bundan başqa, dərman vasitələrinin keyfiyyətinə nəzarət etmək asanlaşacaq. Qiymətlərin optimallaşdırılması isə vətəndaşların ailə büdcəsinə qənaət baxımından faydalıdır".

## Ən optimal yol yerli istehsalın təşkilidir

Milli Məclisin deputatı Vüqar Bayramov deyib ki, dərman vasitələrinin qiymətlərinin yüksək olması Milli Məclisdə dəfələrlə müzakirə olunub və bununla bağlı təkliflər verilib. Ona görə də "Dərman vasitələri haqqında" qanuna 4 yeni maddənin əlavə olunması, eyni zamanda 11 maddə üzrə 86 dəyişikliyin aparılması təklif olunub. Nəzərdə tutulan dəyişikliklərdə Avropanın və digər aparıcı ölkələrin meyarlarına, dünya praktikasına istinad edilib.

Deputat qeyd edib ki, Tarif Şurası tərəfindən dərman vasitələrinin qiymətləri müəyyən edilən zaman qiymətlərin bəlli bir mexanizmə görə tənzimlənməsi həyata keçirilməlidir: "Bütövlükdə qiymətlərin ucuzlaşmasının ən optimal yolu yerli istehsalın təşkil olunmasıdır. Yerli istehsalın təşkil edilməsi birmənalı şəkildə qiymətlərin aşağı düşməsinə gətirib çıxara bilər. Bu, dərman bazarında qiymətlərin strateji baxımdan uzunmüddətli dövrdə aşağı həddə saxlanmasının ən uyğun yoludur".

Vüqar Bayramov bildirib ki, qardaş Türkiyədə yerli istehsalın genişləndirilməsi dolayısı ilə qiymətlərin optimallaşmasına gətirib çıxarıb: "Nəticədə Türkiyə dərman idxal edən ölkədən ixracatçıya çevrilib. Qardaş ölkənin bu sahədəki təcrübəsini nəzərə almaqla, Azərbaycanda da türk şirkətləri ilə birgə dərman istehsalının təşkil edilməsi məqsədəuyğundur".

## Dəyişikliklər vətəndaşların xeyrinədir

İqtisadçı Xalid Kərimli də ölkəmizdə dərman qiymətlərinin qonşu ölkələrlə müqayisədə baha olduğuna diqqət çəkib. Qeyd edib ki, belə olan halda mövcud qanuna nəzərdə tutulan dəyişikliklər ucuzlaşmaya səbəb ola bilər: "Bu, xüsusən dərman vasitələrinin dövlət qeydiyyatının sadələşdirilməsi səbəbindən dərman bazarında rəqabətin güclənməsi nəticəsində baş verə bilər. Nəzərə almaq lazımdır ki, rəqabət güclü olan bazarlarda idxalçılar və ya sahibkarlar məhsulları daha ucuz təklif edirlər. Eyni zamanda qiymətlərin təyin olunmasında dövlətin nəzarət mexanizminin tətbiqi də müəyyən qədər ucuzlaşmaya gətirib çıxaracaq".

İqtisadçının sözlərinə görə, ölkəmizdə Tarif Şurasının qiymətini tənzimlədiyi 14 min adda dərman var. Yəni satış məntəqəsindən asılı olmayaraq, həmin dərmanlar respublikanın istənilən aptekində eyni qiymətə satılmalıdır. Lakin məsələ həmin dərman vasitələri ilə tamamlanmır. Sahibkarlar digər dərmanlara istədikləri qiyməti tətbiq edə bilirlər. Ölkə üzrə aptek sayının çox olmasına baxmayaraq, dərman sahəsinin spesifikliyi bazarda qiymət müxtəlifliyinə səbəb olur.

Xalid Kərimli qeyd edib ki, dərman bazarının xüsusilə bir neçə iri idxalçıdan asılı olması da qiymətlərin bahalaşmasına ciddi təsir göstərir: "Çünki hazırda rəqabət mühiti zəifdir. Lakin yeni qanun ilə qiymət siyasəti müəyyən ediləcək, həmçinin bazara daxil olan təsdiq olunmamış dərmanlara nəzarət mexanizmi də işə düşəcək. Bütün bunlar onu deməyə əsas verir ki, dəyişikliklərdən sonra ölkədə dərman vasitələrinin ucuzlaşması müşahidə edilə bilər. Lakin bu həm də yeni qanunun effektiv tətbiqindən asılıdır. İstənilən halda, "Dərman vasitələri haqqında" qanuna edilən dəyişikliklər vətəndaşların xeyrinədir".

*Nəzrin QARDAŞXANOVA,*
*"Azərbaycan"*

# İşğaldan azad edilmiş ərazilərdə yerquruluşu və torpaq kadastrı işləri davam etdirilir







İqtisadiyyat Nazirliyi yanında Əmlak Məsələləri Dövlət Xidməti tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi bölgəsində torpaqların kəmiyyət və keyfiyyət göstəricilərinin elektron kadastr uçotu, eləcə də torpaqların bonitirovkası, iqtisadi qiymətləndirilməsi və s. kimi torpaq kadastrı və yerquruluşu işləri davam etdirilir.

AZƏRTAC xəbər verir ki, bu işlərin həyata keçirilməsi bölgənin malik olduğu torpaq ehtiyatlarının həcminin, məqsədli təyinatına və hüquqi rejiminə uyğun tərkibinin müəyyən edilməsinə imkan verəcək.

Ağdamın işğaldan azad olunmuş hissəsində bu ilin may ayından etibarən kadastr və yerquruluşu işləri aparılır. Kadastr və yerquruluşu işləri çərçivəsində 22 min hektardan çox ərazidə çöl geobotaniki tədqiqat işləri həyata keçirilib. Müasir çöl ölçmə aparatlarından istifadə edərək, 22 min 523 hektar ərazinin elektron kadastr məlumat bazası və rəqəmsal kadastr xəritələri hazırlanıb.

Qeyd edək ki, işğaldan azad edilmiş ərazilərdə aparılmış yerquruluşu işləri çərçivəsində Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl, Laçın, Füzuli və Ağdam rayonlarında ümumilikdə 536 min 810 hektar ərazidə çöl ölçmə işləri icra olunub.

Dağıdılmış yaşayış məntəqələri, kənd təsərrüfatı təyinatlı torpaqlar, meşələr və digər təyinatlı torpaqların, o cümlədən onların hüdudları daxilində yerləşən bütün komponentlərin koordinatları çöl ölçmə işləri zamanı Dövlət Xidmətinin mütəxəssisləri tərəfindən müasir cihazlarla təyin olunur. Ərazidə GPS vasitəsilə çöl ölçmə işlərini aparmaq üçün fasiləsiz fəaliyyət göstərən AzPOS stansiyalarına istinad edilir, mövcud olan bütün növ daşınmaz əmlak qeydiyyata alınır.

Bu günədək Zəngilan, Qubadlı, Kəlbəcər, Cəbrayıl, Laçın, Ağdam və Füzuli rayonları üzrə ümumilikdə 346 min 855 hektar ərazidə çöl torpaq tədqiqatı, 386 min 873 hektar ərazidə çöl geobotaniki tədqiqatlar aparılıb, torpaq və bitki nümunələri götürülərək aqrokimyəvi analizlərin aparılması üçün Əmlak Məsələləri Dövlət Xidmətinin Kadastr və Yerquruluşu Layihə-Tədqiqat Mərkəzinin və Kənd Təsərrüfatı Nazirliyinin laboratoriyalarına verilib.

Kadastr işləri çərçivəsində həyata keçirilən çöl torpaq tədqiqatı ilə şorlaşma və şorakətləşmə, eroziya və digər təsirlər nəticəsində münbitliyi məhv olmuş torpaqlar təyin edilərək uçotu aparılır. Gələcəkdə münbit qatı məhv edilmiş torpaqların bərpa edilərək yenidən kənd təsərrüfatı dövriyyəsinə qaytarılması məqsədilə rekultivasiya işlərinin aparılması nəzərdə tutulur.

İşğaldan azad olunmuş ərazilərdə torpaqların kəmiyyət və keyfiyyət göstəriciləri ilə bağlı aparılan elektron kadastr uçotu daşınmaz əmlakın vahid dövlət kadastrının formalaşdırılmasına, torpaqlardan istifadənin və onun mühafizəsinin səmərəliliyinin artırılmasına, torpaq ehtiyatlarının daha təkmil formada idarəedilməsinə imkan verəcək.

Qeyd edək ki, torpaq və geobotaniki tədqiqatların nəticələri torpaqların vahid elektron kadastrı uçotu informasiya sisteminə daxil edilir. Tədqiqat işləri tam başa çatdıqdan sonra əldə edilən məlumatlar işğaldan əvvəlki tədqiqat məlumatları ilə müqayisə olunacaq. Bununla Azərbaycanın torpaq fonduna dəymiş ziyan haqqında dəqiq məlumat əldə ediləcək.

# Baş Prokurorluqda "Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması" mövzusunda beynəlxalq konfrans keçirilib



İyunun 23-də Azərbaycan Respublikası Baş Prokurorluğunun və İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Aparatının birgə təşkilatçılığı ilə "Biznes və insan hüquqları kontekstində şəffaflığın təmin olunması" mövzusunda beynəlxalq konfrans keçirilib.

AZƏRTAC xəbər verir, konfransda baş prokuror Kamran Əliyev, İnsan hüquqları üzrə müvəkkil (ombudsman) Səbinə Əliyeva və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc, Azərbaycan Respublikası Prezidentinin Administrasiyası, Nazirlər Kabineti, Milli Məclis, Baş Prokurorluq, məhkəmə, hüquq-mühafizə orqanları, insan hüquqları üzrə təsisatların yüksəkvəzifəli şəxsləri, beynəlxalq təşkilatların, biznes qurumlarının, vətəndaş cəmiyyəti, həmkarlar ittifaqları, qeyri-hökumət təşkilatlarının və media mənsubları iştirak ediblər.

Kamran Əliyev çıxış edərək bildirib ki, ölkəmizdə beynəlxalq normalara əsaslanan demokratik, hüquqi dövlət quruculuğunun böyük vüsət alması, suveren Azərbaycanın əsas qanunu olan Konstitusiyanın qəbul edilməsi, vətəndaş cəmiyyətinin formalaşdırılması, yeni iqtisadi kursun müəyyənləşdirilməsi, Avropa yönümlü inkişaf strategiyasının seçilməsi, ölkədə dayanıqlı ictimai-siyasi sabitliyi birdəfəlik təmin edən digər faktorların da yaradılması, Azərbaycanın bu gün də davam edən inkişafının təməlinin qoyulması cari ildə 100 illik yubileyini qeyd etdiyimiz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin adı ilə bağlıdır.

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev tərəfindən 1998-ci il fevralın 22-də "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalanıb və ona uyğun olaraq "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" hazırlanıb. "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının təsdiq edilməsi haqqında" Prezidentin 1998-ci il 18 iyun tarixli fərmanında müvafiq dövlət qurumları üzərinə Azərbaycan Respublikasının insan hüquqları haqqında beynəlxalq sazişlərə qoşulması, bu sahədə elmi-tədqiqat institutunun yaradılması, normativ-hüquqi aktların insan hüquqlarına dair beynəlxalq standartlara tam uyğunlaşdırılmasının təmin edilməsi, insan hüquqları haqqında öhdəliklərə riayət edilməsi vəzifəsi qoyub.

"İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramının" həyata keçirilməsi istiqamətində işlər davam etdirilərək ötən illər ərzində Azərbaycan Respublikası İnsan hüquqları sahəsində fəaliyyət göstərən nüfuzlu beynəlxalq qurumlarla əməkdaşlığı inkişaf etdirib, insan hüquqlarının müdafiəsi sahəsində çoxsaylı beynəlxalq sənədlərə tərəfdar çıxıb və bu sahədə beynəlxalq öhdəliklərin həyata keçirilməsində mühüm nailiyyətlər əldə edib.

Ulu Öndərin dövlətçilik siyasətinin layiqli davamçısı, Prezident İlham Əliyevin rəhbərliyi ilə respublikada həyata keçirilən müasir məzmunlu və gələcəyə istiqamətlənmiş məqsədyönlü siyasət nəticəsində ölkə həyatının bütün sahələrində yüksək nəticələr əldə edilib, müstəqilliyimizin və suverenliyimizin əsasları daha da möhkəmləndirilib. Dünyanı bürümüş maliyyə böhranı şəraitində vətənimizin iqtisadi qüdrəti artıb, yüksək sosial-iqtisadi inkişaf göstəricilərinə nail olunmaqla hüquqi və demokratik dövlət, vətəndaş cəmiyyəti quruculuğu prosesləri yeni müstəviyə qaldırılıb, dünya birliyinə inteqrasiya dönməz xarakter alıb.

Həmçinin qeyd olunub ki, biznesin insan hüquqlarının reallaşdırılmasına təsiri, bu hüquqların pozulmasına görə kommersiya təşkilatlarının məsuliyyəti məsələsi son onilliklərdə Birləşmiş Millətlər Təşkilatının ciddi tədqiqat predmetinə çevrilib. 1999-cu ildə İsveçrənin Davos şəhərində keçirilmiş Beynəlxalq İqtisadi Forumda bütün dünya əhalisinin tələblərinə cavab verəcək qlobal dəyər və prinsiplər toplusunun işlənib hazırlanması fikri irəli sürülüb və 2000-ci ildə bu fikir BMT-nin "Qlobal Saziş"ində biznesin beynəlxalq səviyyədə təsbit olunmuş insan hüquqlarına hörmət etməsini, dəstəkləməsini və bu hüquqlara riayət olunmasını nəzərdə tutan "on prinsip" vasitəsilə öz təsdiqini tapıb.

"Qlobal Saziş" "İnsan Hüquqları haqqında Ümumi Bəyannamə"nin, Beynəlxalq Əmək Təşkilatının "İş yerlərində hüquqlar və əsas prinsiplərə dair Bəyannaməsi"nin, "Ətraf mühit və inkişaf haqqında Rio-de-Janeyro Deklarasiyası"nın və BMT-nin "Korrupsiyaya qarşı Konvensiyası"nın tələblərinə istinadən tərtib olunmuş və könüllülüyə əsaslanmaqla qeyd olunan on prinsipin beynəlxalq səviyyədə sahibkarlıq fəaliyyətinə inteqrasiyasını, BMT-nin inkişafla bağlı genişmiqyaslı məqsədlərinin həyata keçirilməsi üzrə fəaliyyətinin stimullaşdırılmasını nəzərdə tutur.

Bundan əlavə, BMT-nin "Müdafiə, hörmət və hüquq-müdafiə vasitələri" layihəsi çərçivəsində İnsan Hüquqları Şurasının 2011-ci il 16 iyun tarixli, 17/4 saylı Qətnaməsi ilə BMT-nin "Biznes və insan hüquqları sahəsində Rəhbər Prinsipləri" təsdiq edilib.

Azərbaycan qeyd olunan sahədə çoxsaylı beynəlxalq təşəbbüslərə qoşulmaqla, insanların cinsindən, irqindən və milli mənsubiyyətindən, dini etiqadından, sosial mənşəyindən, siyasi əqidəsindən və başqa hallardan asılı olmayaraq onların hüquq və azadlıqlarının maneəsiz həyata keçirilməsinin təmin olunmasını öz öhdəsinə götürüb.

Azərbaycan xalqının təntənəli surətdə bəyan etdiyi prinsiplər sırasında qanunların aliliyini təmin edən hüquqi dövlət qurmaq niyyətini təsbit edən Azərbaycan Respublikasının Konstitusiyası insan hüquq və azadlıqlarını ümumbəşəri dəyərlər kimi qiymətləndirərək, onların təmin edilməsini dövlətin ali məqsədi elan edib. Həmçinin dövlətin hər kəsin hüquqlarının və azadlıqlarının müdafiəsinə təminat verməsini təsbit edib.

Bu mənada Azərbaycan Respublikasının qanunları ilə nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına prokuror nəzarətinin, eyni zamanda insan hüquq və azadlıqlarının səmərəli hüquqi müdafiə mexanizmi kimi çıxış etməsi, qanunla nəzərdə tutulan maddi və prosessual hüquq normalarına, onların rəsmi şərhinə, formalaşmış məhkəmə təcrübəsinə riayət edilməsinin davamlılığını təmin etməklə yanaşı, qeyd olunan istiqamətlər üzrə fəaliyyətin və ümumilikdə, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquqları və əsas azadlıqları ilə bağlı beynəlxalq və konstitusion prinsiplərin, İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedentlərinin nəzərə alınaraq tətbiqinə, ictimai münasibətlərin nizama salınmasında hüquq normalarının tənzimləyici rolunun artırılmasına və hüquq mədəniyyətinin yüksəldilməsinə xidmət etməsi konfrans iştirakçılarının diqqətinə çatdırılıb.

Konfransın həmsədri Azərbaycan Respublikasının İnsan hüquqları üzrə müvəkkili (ombudsman) Səbinə Əliyeva çıxışında biznes və insan hüquqları sahəsinin müvəkkilin daim diqqət mərkəzində olmasını, bu sahədə mövcud vəziyyətin monitorinqi, çatışmazlıqların müəyyən edilməsi və aradan qaldırılması məqsədilə müvəkkil tərəfindən davamlı olaraq tədbirlərin təşkil olunmasını, elmi-analitik iş aparılaraq, beynəlxalq təcrübənin öyrənilməsini, bu istiqamətdə dövlət qurumları, QHT-lər və beynəlxalq təşkilatlarla sıx əməkdaşlığın davam etdirilməsini vurğulayıb.

Sosial Tədqiqatlar Mərkəzinin İdarə Heyətinin və Milli Məclisin İnsan hüquqları komitəsinin sədri Zahid Oruc çıxışında qeyd edib ki, Prezident İlham Əliyev ölkədə bütün sahələrdə yenilik edərək şəffaflığı təmin etdi.

Dövlətimizin başçısı bütün sahələrdə sistemli dəyişikliklər edib. Həmçinin iqtisadi və biznes mühitinin yenilənməsi istiqamətində mühüm qərarlar verdi. Yüksək təhsilli və mütərəqqi şəxslərin mühüm vəzifələrə təyini ilə bağlı islahatlara müqavimət göstərən qüvvələrin vəzifədən kənarlaşdırılması fonunda baş verdi.

O əlavə edib ki, təkcə 2018-2020-ci il ərzində ölkədə önəmli vəzifələrdə çalışan yüzlərlə şəxs vəzifəsindən azad edilib, böyük dəyişikliklər həyata keçirilib.

Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) İdarə Heyətinin sədri Orxan Məmmədov ölkə sahibkarları arasında təsəvvür formalaşdırmaq məqsədilə mütəmadi qaydada müxtəlif sorğuların həyata keçirildiyini bildirib.

O əlavə edib ki, bu sorğular sahibkarların korrupsiyaya dair məlumatlılıq dərəcəsini, o cümlədən biznes mühitində antikorrupsiya davranışı qaydalarını öyrənməyə hesablanıb.

Digər çıxış edənlər konfransda biznes fəaliyyətinin şəffaflığı və müvafiq dəstək mexanizmləri, dayanıqlı inkişaf kontekstində məsuliyyətli biznes, dürüstlüklə biznes etmək - davamlı inkişafın açarı, korrupsiya ilə mübarizə və insan hüquqlarını qorumaq üçün özəl sektor üçün yeni yanaşmalar, özəl sektorda antikorrupsiya standartları, cinayət aktivlərinin bərpası insan hüquqları və iqtisadiyyatın şəffaflığı kontekstində, şəffaf iqtisadiyyatda qadın sahibkarlığının inkişafı, şəffaflıq və ictimai nəzarət mövzularında çıxışlar edilərək, ətraflı müzakirələr və səmərəli fikir mübadiləsi aparılıb.

# Bakıda ABŞ-nin Müstəqillik Günü qeyd edilib





İyunun 23-də ABŞ-nin Azərbaycandakı səfirliyi ölkəsinin müstəqilliyinin elan olunmasının 247-ci ildönümü ilə əlaqədar Bakıda tədbir təşkil edib.

AZƏRTAC xəbər verir ki, tədbirdə əvvəlcə Azərbaycan Musiqi Akademiyasının xorunun ifasında Azərbaycanın və ABŞ-ın Dövlət himnləri səsləndirilib.

Tədbirdə çıxış edən Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki səfirliyinin müvəqqəti işlər vəkili Hüqo Qevara bildirib ki, ABŞ-nin Azərbaycanla 30 ildə əməkdaşlıq əlaqələri genişlənib, şaxələnib. O, ABŞ-Azərbaycan münasibətlərindən söz açaraq, bu əməkdaşlığın indi də



müxtəlif istiqamətlərdə davam etdiyini vurğulayıb. Sonra çıxış edən Azərbaycanın maliyyə naziri Samir Şərifov ötən il Azərbaycan və ABŞ arasında diplomatik münasibətlərin 30-cu ildönümünün qeyd edildiyini bildirib. "İnanırıq ki, ABŞ Cənubi Qafqaz regionunda uzunmüddətli sülh və təhlükəsizliyin bərqərar edilməsini, Azərbaycanın işğaldan azad edilmiş ərazilərinin yenidən qurularaq ölkə iqtisadiyyatına reinteqrasiyasını və tarixi torpaqlarımıza Böyük qayıdışın təmin olunmasına yönəlmiş Azərbaycan dövlətinin səylərini bölüşür və bu səyləri dəstəkləyəcək", - deyə nazir əlavə edib.

Tədbirdə rəsmi şəxslər, Milli Məclisin deputatları, xarici ölkələrin Azərbaycandakı səfirləri, beynəlxalq təşkilatların təmsilçiləri, media nümayəndələri iştirak ediblər.

# Şeyxülislam Allahşükür Paşazadə Kazan və Tatarıstan Mitropoliti ilə görüşüb



İyunun 23-də Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə ölkəmizdə səfərdə olan Rus Pravoslav Kilsəsinin Kazan və Tatarıstan Mitropoliti Kirillə görüşüb.

Qafqaz Müsəlmanları İdarəsindən AZƏRTAC-a bildirilib ki, qonağı salamlayan Şeyxülislam Allahşükür Paşazadə onunla yenidən görüşməkdən məmnun olduğunu diqqətə çatdırıb. Mitropolit Kirillə ötən ay Rusiya Federasiyası Tatarıstan Respublikasının paytaxtı Kazan şəhərində keçirilən "Rusiya-İslam aləmi strateji baxış qrupunun" illik toplantısındakı görüşlərini xatırladan QMİ sədri belə intensiv təmasların dinlər arasında münasibətlərin inkişafına töhfə verəcəyinə inandığını bildirib.

Şeyxülislam Allahşükür Paşazadə Kazandakı tədbir zamanı Moskva və Bütün Rusiyanın Patriarxı Kiril həzrətləri ilə ikitərəfli görüşdə dünyada və regionda sülhün qorunması, dinlər və mədəniyyətlərarası əlaqələrin möhkəmlənməsi, eləcə də digər mühüm məsələlər barədə fikir mübadiləsi apardığını xatırladıb. QMİ sədrinin sözlərinə görə, başçılıq etdiyi dini mərkəzin Rus Pravoslav Kilsəsi ilə uzun illərə, qarşılıqlı hörmət və etimada əsaslanan münasibətləri formalaşıb, bu əlaqələrin inkişafında Patriarx Kiril həzrətlərinin rolu danılmazdır. Şeyxülislam həzrətləri Patriarx Kirilin rəhbərliyi ilə Rus Pravoslav Kilsəsinin Ermənistanla Azərbaycan arasında münaqişənin dini müstəviyə keçməsinin qarşısını almağa yönəlmiş səylərini, o cümlədən iki ölkənin dini liderlərinin görüşləri üçün vasitəçilik missiyasını yüksək dəyərləndirib. Səmimi salamlarını və xeyir-dualarını Patriarx həzrətlərinə çatdırmağı qonaqdan xahiş edib.

Allahşükür Paşazadə Azərbaycan dövlətinin və xalqının birliyi sayəsində ərazi bütövlüyümüzün təmin olunduğunu, Ermənistanın 30 il ərzində təcavüz etdiyi torpaqların işğaldan azad edildiyini diqqətə çatdırıb. Azad olunan rayonlarda Azərbaycan Prezidenti İlham Əliyevin və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın diqqət və qayğısı ilə böyük quruculuq işlərinin aparıldığını deyən QMİ sədri Qarabağda təkcə məscidlərin deyil, digər dinlərə məxsus abidələrin də bərpa edildiyini bildirib.

Səfəri barədə məlumat verən Kazan və Tatarıstan Mitropoliti Kiril Fəxri xiyabanda Azərbaycanın Ümummilli Lideri Heydər Əliyevin və Zərifə xanım Əliyevanın məzarlarını ziyarət etdiyini, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının mərhum rəhbəri Aleksandr İşeinin də xatirəsinə dualar oxuduğunu diqqətə çatdırıb.

Qonaq xalqımızın qonaqpərvərliyini, tolerantlığını, multikultural dəyərlərə sadiqliyini yüksək qiymətləndirib, Bakıda aparılan quruculuq işlərinə heyran qaldığını deyib.

Söhbət zamanı qarşılıqlı maraq doğuran digər məsələlər ətrafında da fikir mübadiləsi aparılıb, sonda xatirə hədiyyələri təqdim olunub.

Görüşdə Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası rəhbərinin vəzifəsini icra edən, Pyatiqorsk və Çərkəz arxiyepiskopu Feofilakt, Bakı Yeparxiyasının katibi, arximandrit Aleksiy iştirak ediblər.

# <u>*Beyk CUHYON:*</u> "Koreya şirkətləri Azərbaycanla əməkdaşlıqda maraqlıdırlar"

Azərbaycan Respublikasının xarici işlər naziri Ceyhun Bayramov ilə Koreya Respublikasının xarici işlər nazirinin xüsusi nümayəndəsi Beyk Cuhyon arasında görüş keçirilib.



Xarici İşlər Nazirliyinin Mətbuat xidməti idarəsindən AZƏRTAC-a bildirilib ki, nazir Ceyhun Bayramov Azərbaycan və Koreya arasında mövcud olan ikitərəfli münasibətlərin uğurlu inkişafını, həmçinin iki ölkə arasında bir çox sahələrdə geniş əməkdaşlıq imkanlarının mövcud olduğunu qeyd edib. Ölkələrimiz arasında iqtisadiyyat, yüksək texnologiyalar, enerji, təhsil, turizm və bir sıra digər istiqamətlərdə əməkdaşlıqdan məmnunluq ifadə olunub. Nazir ölkələrimiz arasında təhsil sahəsində artan əməkdaşlığın, Koreya təhsil standartları əsasında yaradılmış Sənaye və İnnovasiyalar Bakı Dövlət Peşə Təhsil Mərkəzinin fəaliyyətinin, universitetlərarası ikili diplom təhsil proqramlarının Koreya-Azərbaycan əməkdaşlığının vacib istiqamətlərindən olduğunu bildirib.

Nazir 44 günlük Vətən müharibəsindən sonra işğaldan azad olunmuş ərazilərimizdə həyata keçirilən bərpa və yenidənqurma işləri barədə ətraflı məlumat verib.

Koreyanın xüsusi nümayəndəsi öz növbəsində iki ölkə arasında əlaqələrin uğurlu inkişafını vurğulayaraq, Koreyanın Azərbaycanla investisiya, təhsil, gəmiçilik, ərazilərin minalardan təmizlənməsi, nəqliyyat, kommunikasiya, su ehtiyatlarının idarə edilməsi və digər sahələrdə əməkdaşlıq münasibətlərinin inkişaf perspektivlərinə toxunub. Koreya şirkətlərinin Azərbaycanla əməkdaşlıqda maraqlı olduqlarını diqqətə çatdırıb.

Tərəflər həmçinin qarşılıqlı maraq doğuran digər ikitərəfli və regional məsələlər ətrafında fikir mübadiləsi aparıblar.

# Prezidentin göstərişi ilə bölgələrdə vətəndaşların qəbulu keçirilir

Energetika naziri Pərviz Şahbazov iyunun 23-də Qusar rayonundakı Heydər Əliyev Mərkəzində vətəndaşları qəbul edib.

Nazirliyin müvafiq struktur bölmə rəhbərlərinin iştirakı ilə keçirilmiş qəbulda vətəndaşların elektrik enerjisi təchizatı, şəbəkəyə qoşulma, elektrik enerjisi verilişində fasilələrin yaranması, elektrik qurğu və avadanlıqlarının istismar vəziyyəti qazlaşdırma, təbii qazdan istifadəyə görə cərimələrin yazılması və digər məzmunlu müraciətləri dinlənilib, qaldırılan məsələlərin qanunvericiliyin tələblərinə uyğun həll edilməsi üçün lazımi tapşırıqlar verilib. Nazirliyin fəaliyyət dairəsinə aid olmayan müraciətlər isə aidiyyəti qurumlara göndərilməsi üçün qeydə alınıb.

Qəbulda Qusar, Quba və Xaçmaz rayonlarından olan 25 vətəndaş iştirak edib.

* * *

Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinin (SHXÇDX) rəisi Mürsəl İbrahimov iyunun 23-də Şəmkir şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Şəmkir, Goranboy, Samux, Göygöl, Daşkəsən, Kəlbəcər rayonlarından və Gəncə şəhərindən olan vətəndaşları qəbul edib.

Qəbulda 20-dən çox vətəndaşın müraciəti dinlənilib. Vətəndaşlar SHXÇDX-də həqiqi hərbi xidmətə və ya işə qəbul, övladının təkrar tibbi şəhadətləndirilməsi, Vətən müharibəsində şəxsi nəqliyyat vasitəsinə dəymiş ziyanın ödənilməsi, şəhid adının əbədiləşdirilməsi, müddətli həqiqi hərbi xidmətə cəlb olunma və s. məsələlərlə bağlı müraciət ediblər.

Qəbul zamanı vətəndaşların müraciətləri diqqətlə dinlənilib, bir hissəsi yerindəcə həll olunub, araşdırma tələb edən məsələlər qanunvericiliyə uyğun olaraq həll edilməsi məqsədilə qeydiyyata alınıb və müvafiq tapşırıqlar verilib.

* * *

Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov iyunun 23-də Sumqayıt şəhərində yerləşən Heydər Əliyev Mərkəzində Sumqayıt şəhəri, Qubadlı və digər rayonlardan olan vətəndaşları qəbul edib, onların müraciətlərini dinləyib, ərizə və şikayətlərinə baxıb.

Daha sonra Azərbaycan Dövlət Su Ehtiyatları Agentliyinin sədri Zaur Mikayılov hər bir vətəndaşın müraciətini diqqətlə dinləyib, qaldırılan məsələlərin hərtərəfli öyrənilməsi və qanunvericiliyin tələblərinə uyğun qısa müddətdə həll edilməsi üçün müvafiq tapşırıqlar verib. Müraciətlər əsasən su və kanalizasiya xətlərinin çəkilməsi, yeni sayğacların quraşdırılması, dəyişdirilməsi və digər məsələlərlə bağlı olub. Vətəndaşların müraciətlərinin bir qismi yerindəcə həllini tapıb, qaldırılan bəzi məsələlər isə araşdırılması üçün nəzarətə götürülüb.

* * *

Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin İdarə Heyətinin sədri Saleh Məmmədov Şabran rayonunda vətəndaşlarla görüşüb.

Daha sonra Şabran rayonundakı Heydər Əliyev Mərkəzinin inzibati binasında keçirilən qəbulda Şabran və Xaçmaz rayonlarından olan vətəndaşların müraciət və şikayətləri dinlənilib.

Qəbul zamanı müraciətlər əsasən avtomobil yollarının təmir-bərpası və yenidən qurulması, işə qəbul və digər məsələlərlə bağlı olub.

Qəbulda hər bir vətəndaşın müraciəti dinlənilib. Agentliyin balansında olan avtomobil yolları ilə bağlı şikayətlərin qısa müddətdə araşdırılaraq zəruri tədbirlərin görülməsi barədə aidiyyəti struktur bölmələrinin rəhbərlərinə tapşırıqlar verilib. Agentliyin balansında olmayan şəhər, qəsəbə və kənddaxili küçə və yollara aid şikayətlərlə bağlı isə vətəndaşlara aidiyyəti üzrə yerli strukturlara (yerli icra hakimiyyəti və yerli bələdiyyələr) müraciət etmələri tövsiyə olunub.

***AZƏRTAC***

# "AŞPA-nın məruzəsi regionda sülhə əks-təsir göstərəcək"

Avropa Şurası Parlament Assambleyasının yay sessiyası çərçivəsində dinlənilən "Laçın dəhlizi ilə sərbəst və təhlükəsiz girişin təmin edilməsi" adlı məruzənin ilk andan qərəzli və siyasi xarakter daşıdığı aydın göründü. Azərbaycanın AŞPA-dakı nümayəndə heyəti məruzədə olan yanlış və qeyri-obyektiv məlumatlara bənd-bənd etirazını bildirib.

AZƏRTAC xəbər verir ki, bu sözləri Azərbaycanın AŞPA-dakı nümayəndə heyətinin rəhbəri Səməd Seyidov söyləyib.



O bildirib: "Bölgə tarixində ilk dəfədir ki, iki xalq bir-birinə çox yaxındır. İki dövlət sülh axtarır və əslində, onlar sülhə nail olmaq üçün çox işlər görüblər. Bu cür müzakirələrlə sülh o qədər də asan olmayacaq". S.Seyidov vurğulayıb ki, bu məruzə və müzakirələr region sakinləri üçün qeyri-məhsuldar olacaq.

Paul Qavanın əvvəlcə hesabatının siyasətlə bağlı olmadığını, humanitar məsələlərə həsr edildiyini bildirən S.Seyidov qeyd edib: "Lakin məruzə siyasi məqamla başladı. Məruzədə "Dağlıq Qarabağ" terminindən istifadə edilib ki, bu da məhz siyasi amildir. Çünki "Dağlıq Qarabağ" adlı ərazi vahidi yoxdur. Azərbaycanın Qarabağ bölgəsi var, ölkəmiz müstəqil dövlət kimi Avropa Şurasına məhz belə qəbul olunub. Bu termin ölkənin ərazi bütövlüyünü şübhə altına almaqdır". O, avropalı deputatların bəzilərinin elə ilk olaraq özlərinin dediklərini təkzib etdiklərini diqqətə çatdırıb.

Avropalı parlamentarilərə müraciət edən S.Seyidov deyib: "Azərbaycana qarşı çoxlu ittihamlar eşitmisiniz. Heç Qarabağda aclıq çəkən uşaqların bircə şəklini görmüsünüzmü? Yox! Bu, mümkün deyil. Çünki belə saxta ittihamlar "cənab" Ruben Rubinyanın təbliğatıdır. Heç görmüsünüzmü ki, Qırmızı Xaç Komitəsinin nümayəndələrinin əraziyə girişinə mane olsunlar? Heç vaxt! Qarabağda və ya Azərbaycanın digər rayonlarında yaşayan ermənilərin danışıqlara qarşı çıxdıqlarını eşitmisinizmi? Yox! Azərbaycan parlamenti ermənilərlə əlaqə saxlamaq üçün xüsusi nümayəndə heyəti yaradıb. Onlar bizim vətəndaşlarımızdır. Buradakı erməni nümayəndəsi Azərbaycanı ittiham etməklə, Avropa Şurasına şikayət etməklə, beynəlxalq təşkilatlara yalvarmaqla danışıqlardan qaçırlar. Bilirsiniz niyə? Cavab aydındır. Onlar sülhdən danışmaq istəyirlər, amma sülhə nail olmaq istəmirlər. Sadəcə olaraq, burada məsələ ilə bağlı öz niyyətlərini nümayiş etdirmək istəyirlər. O qədər məqbuldurlar, o qədər dinlənilirlər".

S. Seyidov diqqətə çatdırıb ki, Paul Qavan səmimi deyil. "2021-ci ildə Azərbaycanda olanda Qarabağa getdi, Ağdam rayonunda oldu, Ermənistanın azərbaycanlılara qarşı etdiklərini öz gözləri ilə gördü. Azərbaycana səfəri zamanı Gəncənin erməni raketləri ilə dağıdılmasının məruzəsində əks etdirməsi xahiş olundu", - deyən nümayəndə heyətinin rəhbəri üzünü müəllifə tutaraq bildirib: "Qəbul edin ki, Bərdə şəhəri müharibə zamanı ermənilər tərəfindən raket hücumuna məruz qalıb. Söz vermişdiniz ki, bunu əks etdirəcəksiniz. Sonra dediniz ki, yox, bunu bacarmıram. Sonra bütün bu məlumatlarla məruzəçi oldunuz və Azərbaycanı o cür təqdim etməyə çalışdınız. Bu, ədalətli deyil. Biz sülh tərəfdarıyıq və bu cür ittihamlara baxmayaraq, sülhə nail olacağıq".

O, məruzənin bəndlərində olan səhv və qərəzli siyasi məlumatlara etirazlarını əsaslandırdıqlarını, bəzi dəyişikliklərə nail olduqlarını bildirib.

# Fransadakı səfirliyimizin binasına hücum etmiş erməni hərəkatının üzvünə 6 aylıq şərti cəza verilib

İyunun 23-də Paris məhkəməsində, Azərbaycan Respublikasının Fransadakı səfirliyi önündə ötən il keçirilmiş icazəsiz aksiya zamanı səfirliyin binasına hücum etmiş, Fransada fəaliyyət göstərən "Charjoum" adlı erməni hərəkatının üzvü Loris Tufanyana qarşı dinləmələr baş tutub.

Xatırladaq ki, 2022-ci il sentyabrın 18-də radikal erməni nümayəndələri tərəfindən Parisdə Azərbaycan səfirliyinə qarşı hücum cəhdi olmuş və nəticədə səfirliyin binasına zərər yetirilmişdir. Baş vermiş hücum aktı ilə əlaqədar dəlillər yerli məhkəməyə təqdim edilmiş və hücumun əsas təşkilatçısı və iştirakçılarının cəzalandırılması tələb edilmişdir. Məhkəmədə Azərbaycan Respublikasının səfirliyini "Lexlor" hüquq şirkəti təmsil edib.

Paris məhkəməsinin bu gün verdiyi qərarla sözügedən hücumun əsas iştirakçısı olan "Charjoum" erməni hərəkatının üzvü Loris Tufanyana 6 aylıq şərti cəza müəyyən edilib və cərimə tətbiq olunub.

Səfirlik radikal qruplar tərəfindən diplomatik nümayəndəliyə qarşı hər hansı hücum cəhdlərini bir daha qətiyyətlə qınayır, 1961-ci il Vyana Konvensiyasına uyğun olaraq diplomatik nümayəndəliyin təhlükəsizliyinin təmin edilməsi üçün yerli hüquq-mühafizə orqanları tərəfindən gücləndirilmiş tədbirlərin təmin edilməsinə çağırır və Paris məhkəməsinin sözügedən qərarını gələcəkdə bu kimi halların qarşısının alınması və ədalətin təmin edilməsi baxımından mühüm addım kimi qiymətləndirir.

***AZƏRTAC***

## VI Beynəlxalq Musiqi Festivalı

# Məşhur ifaçı Mustafa Said musiqi ansamblı ilə Bakıda konsert verib





**"Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində növbəti konsert proqramı iyunun 22-də Beynəlxalq Muğam Mərkəzində təşkil olunub.**

Gecədə məşhur misirli ud ifaçısı Mustafa Said özünün təsis etdiyi "Asil" Müasir Ərəb Klassik Musiqi Ansamblı ilə çıxış edib.

Konsertdən əvvəl AZƏRTAC-a müsahibə verən Mustafa Said "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində Bakıda konsert proqramı ilə çıxış etməkdən məmnunluğunu vurğulayıb. Eyni zamanda belə bir tədbirin təşkilinə görə Heydər Əliyev Fonduna öz minnətdarlığını bildirib. O deyib: "Belə zəngin musiqi irsinə sahib bir ölkədə keçirilən "Muğam aləmi" festivalında iştirak etmək böyük şərəfdir. Təsis etdiyim musiqi ansamblı 2003-cü ildə yaranıb. Əsas məqsəd müasir ərəb musiqisini klassik ənənələrə istinad edən yeni səviyyəyə çatdırmaqdır. Ansamblla birgə poeziya, tarix, ədəbiyyat və musiqidən ilhamlanaraq bir sıra yeni kompozisiyalar yaratmışıq. Yeni



perspektivlər qarşıya qoyaraq interpretasiya, vokal ənənəvilik dairəsini genişləndirir, musiqi konsepti daxilində akustik səslərin tətbiqi təcrübəsini təqdim edirik".

Qeyd edək ki, misirli Mustafa Said musiqiçi, bəstəkar, musiqişünas, virtuoz ud ifaçısı və müğənnidir. 2019-cu ildə "Aga Khan Music Awards"un qalibi olub. O, 2009-2022-ci illərdə "AMAR Foundation for Arabic Music Archiving and Research"ın direktoru vəzifəsində çalışıb. Bu fond ərəb dünyasında ərəb musiqisinin audio arxivləşdirilməsi ilə məşğul olan yeganə təşkilatdır. Hazırda Beyrutda yaşayan Mustafa Said karyerasını klassik ərəb repertuarının bərpasına həsr edən gənc istedadlı musiqiçidir. Onun musiqiyə yanaşması XIX əsrin ikinci yarısında Aralıq Dənizi ölkələrində mövcud olan musiqi ənənələrinə söykənir. Mustafa, həmçinin klassik ərəb musiqisinin təbliği ilə əlaqədar yaranan "Rawdat Al-Balabel"ə rəhbərlik edib. Onun 4 albomu var. İfaçı haqqında akademik nəşrlər və dövri mətbuatda çoxsaylı məqalələr çap olunub, musiqisi və esseləri bir çox mükafatlara layiq görülüb, tənqidçilər tərəfindən tanınıb. Onun yaratdığı "Asil" ansamblı bir neçə albom hazırlayıb.

Qeyd edək ki, "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalının 5-ci günündə Müslüm Maqomayev adına Azərbaycan Dövlət Akademik Filarmoniyasının Kamera və Orqan Musiqisi zalında festival çərçivəsində UNESCO-nun xüsusi mükafatçısı, Yunanıstanın "En Chordais" musiqi ansamblı çıxış edib.

Ansambl Aralıq dənizinin multikultural, elmi və populyar musiqi ənənələri sahəsində fəaliyyət göstərir. Kollektiv Aralıq dənizi ölkələrinə xas olan musiqini regional yunan müasir tendensiyaları ilə uğurla uyğunlaşdırır. Ansambl dünyanın ən tanınmış musiqi səhnələrində çıxışı və məşhur musiqiçilərlə əməkdaşlığı ilə tanınır.

Elə həmin axşam Azərbaycan Milli Konservatoriyasında "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı çərçivəsində Hindistanın məşhur vokalisti Varijashree Venugopal, violin ifaçısı Jyotsna Srikanth, Azərbaycanlı truba ifaçısı, bəstəkar Firudin Həmidovun çıxışları olub.

Xatırladaq ki, "Muğam aləmi" 6-cı Beynəlxalq Musiqi Festivalı Heydər Əliyev Fondu və Mədəniyyət Nazirliyinin təşkilatçılığı, Elm və Təhsil Nazirliyinin, Azərbaycan Milli Konservatoriyasının dəstəyi ilə keçirilir. Festival iyunun 25-dək davam edəcək.

# Unudulmaz sənətkar Bülbülün xatirəsi yad olunub





**Bülbülün Memorial Muzeyində Azərbaycan professional vokal sənətinin banisi, Xalq artisti Bülbülün anadan olmasının 126-cı ildönümü münasibətilə tədbir keçirilib.**

Muzeydən AZƏRTAC-a bildirilib ki, muzeyin direktoru Fərqanə Cabbarova çıxış edərək Bülbülün həyat və yaradıcılığı haqda geniş məlumat verib.

O, Ümummilli Lider Heydər Əliyevin Bülbüllə bağlı səsləndirdiyi fikirlərdən də bəhs edib.

Tədbirdə Əməkdar artist, Bülbül məktəbinin layiqli davamçısı Ramil Qasımov, Əməkdar artist, Azərbaycan Milli Konservatoriyasının dosenti Anar Şuşalı, Azərbaycan Musiqi Mədəniyyəti Dövlət Muzeyinin direktoru, Əməkdar mədəniyyət işçisi Alla Bayramova çıxış ediblər.

Azərbaycan Dövlət Akademik Opera və Balet Teatrının solisti Fəhmin Əhmədli, Azərbaycan Milli Konservatoriyasının tələbələri, Milli Muğam Müsabiqəsinin diplomantları, İncəsənət Gimnaziyasının şagirdləri tədbirdə iştirak ediblər.

Həmçinin tədbir çərçivəsində Ümummilli Lider Heydər Əliyevin Bülbülün 100 illik yubileyində çıxışı, dahi sənətkarın yaradıcılığına həsr olunmuş videoroliklər nümayiş etdirilib.

# Kolumbiyanın məşhur radiosunda "Azərbaycan musiqisi saatı"

**Kolumbiyanın geniş dinləyici auditoriyasına malik "CyC Radio"sunun efirində ölkəmizə həsr olunmuş veriliş zamanı Azərbaycan mahnıları səsləndirilib.**

Meksikadakı səfirliyimizdən AZƏRTAC-a bildirilib ki, verilişdə Azərbaycanda ən çox sevilən musiqilər arasında yer alan 8 mahnı musiqisevərlərə təqdim olunub.

Musiqi verilişində ölkəmizdə geniş populyarlıq qazanmış "Mən azərbaycanlıyam" (Tünzalə Ağayeva), "Atəş" (N.Kərimbəyova və C.Zeynalov), eləcə də müxtəlif illərdə ölkəmizi "Avroviziya" mahnı müsabiqəsində təmsil etmiş müğənnilərin mahnıları səsləndirilib.

Qeyd edək ki, Kolumbiyanın Hökumət radiolarından hesab olunan "CyC Radio"suna həmin ölkənin Mədəniyyət Nazirliyinin internet səhifəsi vasitəsilə də qulaq asmaq mümkündür. "CyC Radio"su "Deutsche Welle", "RAI Radio",




"Radio Nederland", REE kimi dünyaca məşhur bir sıra radiolarla əməkdaşlıq edir.

## III Avropa Oyunları

# Bir qızıl, bir bürünc medal









*Əvvəli 1-ci səh.*

B qrupundakı ilk görüşündə ispaniyalı Babakar Sakoya 6:4 hesabı ilə qalib gələn 31 yaşlı idmançı növbəti qarşılaşmada gürcüstanlı Qoqita Arkania ilə bacarmayıb - 1:2. Son döyüşdə isə bosniya və herseqovinalı Anes Bostanjiçi 9:1 hesabı ilə məğlub edən Azərbaycan karateçisi adını yarımfinala yazdırıb. İdmançımız yarımfinalda xorvatiyalı Andelo Kvesiçə uduzub - 3:5.

Buna baxmayaraq, Qurbanlı bürünc medal əldə edərək Azərbaycan komandasına Avropa Oyunlarının ikinci mükafatını qazandırıb.

Xanım karateçimiz İrina Zaretska (68 kq) isə ilk görüşündə erməni rəqibi Anita Makyana qalib gəlib. Ukraynalı Qalina Melniki (5:0) üstələyən dünya və Avropa çempionumuz ardıcıl ikinci qalibiyyət sayəsində yarımfinala yüksəlib. O, üçüncü duelində ispaniyalı İzabel Nyetonu çətinliklə (4:3) məğlubiyyətə uğradıb. 27 yaşlı karateçi bununla minimum bürünc medalı təmin edib. Finala gedən yolda İrina Fransa təmsilçisi Alize Agierlə qarşılaşmadan 3:0 hesabı ilə qalib ayrılıb. Həlledici mərhələdə isveçrəli Yelena Kuiriçi ilə üz-üzə gələn xanım idmançımız qələbə qazanaraq qızıl medala yiyələnib.

75 kq çəki dərəcəsində yer aldığı B qrupunda yarışan Fərid Ağayev isə yarımfinala yüksələ bilməyib. İlk iki görüşündə müvafiq olaraq ukraynalı Andrey Zaplitnyi (1:2) və italiyalı Daniele De Vivoya (2:5) məğlub olan F.Ağayev portuqaliyalı Tiaqo Migel Qonçalveslə heç-heçə edib - 0:0.

Qadınların yarışında isə Fəridə Əliyeva (68) qrupdakı hər üç görüşünü uduzaraq mübarizəni dayandırıb.

# Taekvondoçulardan iki mükafat



Dünən taekvondoçularımız III Avropa Oyunlarında ilk görüşlərinə çıxıblar. 54 kq çəkidə yarışan Səyyad Dadaşov 1/8 final mərhələsində almaniyalı Xalid Abdel Halimlə üz-üzə gəlib. Rəqibinə qalib gələn Dadaşov 1/4 finala yüksəlib. O, növbəti raundda bolqarıstanlı Lyubomir Boqdanovla görüşüb. Rəqibini 2:0 hesabı ilə üstələyən Dadaşov yarımfinala yüksəlib. O, finala gedən yolda İsveç təmsilçisi İbrahim Marvanla qarşılaşıb. Rəqibinə 2:0 hesabı ilə qalib gələn Dadaşov adını finala yazdırıb. Həlledici mərhələdə ispaniyalı Uqo Arilya Vaskesə 1:2 hesabı ilə uduzan Dadaşov turniri gümüş medalla başa vurub.

58 kq-dakı digər təmsilçimiz Həşim Məhəmmədov isə Aymen Açnineyə (Niderland) qalib gələrək 1/4 finala yüksəlib. Bu mərhələdə ispaniyalı Adrian Visente ilə qarşılaşan idmançımız uduzaraq təsəlliverici görüşə qatılıb. O, bu mərhələdə israilli Dmitir Naqayevi üstələyib - 2:0.

Bürünc mükafat uğrunda italiyalı Matias Lomartireyə qalib gələn idmançımız (2:0) III Avropa Oyunlarını 3-cü pillədə başa vurub.

46 kq çəkidə mübarizə aparan Minayə Əkbərova Sofiya Zampettiyə (İtaliya) uduzub. İtaliyalı idmançının finala yüksəlməsi Minayənin təsəlliverici görüşdə iştirakına imkan yaradıb. İdmançımız təsəlliverici qarşılaşmada Dina Puryunesə 2:0 hesabı ilə qalib gələrək bürünc yer uğrunda yarışa vəsiqə əldə edib. Təmsilçimiz kiprli Kiriaki Kuttukiyə uduzaraq, yarışı medalsız başa vurub.

# Boksçumuz qələbə ilə başladı

**Azərbaycan boksçuları III Avropa Oyunlarında mübarizəyə başlayıblar. Təmsilçimiz Malik Həsənov 63,5 kq çəki dərəcəsindəki ilk görüşündə qələbə qazanıb.**



O, 1/16 final mərhələsində polşalı Roskoviç Bartlomeyi 5:0 hesabı ilə məğlub edərək 1/8 finala yüksəlib.

57 kq çəki dərəcəsində yarışan Ümid Rüstəmov isə Ronald Veresə (Macarıstan) 0:5 hesabı ilə uduzaraq mübarizəni dayandırıb.

# Atıcılarımız yenə uduzdular



**"Krakov-2023"də atıcılıq yarışları davam edir. Qarışıq komandaların tapança ilə 10 metr məsafədən atəş açma yarışında seçmə mərhələnin A qrupunda mübarizə yekunlaşıb.**

Azərbaycan təmsilçiləri Ruslan Lunyov və Nigar Nəsirova burada 572 xal toplayıblar. Təmsilçilərimiz 28 cüt arasında 572 xalla 17-ci yeri tutublar. Bununla da snayperlərimiz finala adlaya bilməyiblər. Bu raunda hər qrupdan 4 komanda yüksəlib.

Qeyd edək ki, Ruslanla Nigar srağagün baş tutan fərdi yarışlarda da finaldan kənarda qalıblar.

Azercell abunəçilərinin nəzərinə!

"Azercell Telekom" MMC tərəfindən göstərilən xidmətlərin keyfiyyətinin daha da artırılması məqsədilə aparılacaq təkmilləşdirmə işləri ilə əlaqədar 24.06.2023-cü il saat 23:30-dan 25.06.2023-cü il gecə saat 00:30-dək bəzi xidmətlərin istifadəsində müvəqqəti çətinliklərin yaranması mümkündür.



*Təkrar*

# "Azərenerji" ASC

## 110 kV-luq ikidövrəli "110/35/10 kV Qorçu YS - 110/35/10 kV-luq Laçın şəhər YS" arası EVX-nin tikintisi işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 3 000 (üç min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər. Əlaqələndirici şəxs: Həmid İsazadə, telefon: 490-09-27, 598-05-56.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN : 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.İ.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq **20 000 000** **(iyirmi milyon manat)** AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması;*
- *iddiaçı şirkətin analoji işlərə uyğun elektrik stansiyaların, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işləri üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) 25 iyul 2023-cü il saat 15:00-a qədər, bank təminatını, tender təklifini isə 02 avqust 2023-cü il saat 15:00-a qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi, 10 ünvanına, "Azərenerji" ASC-nin Ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri 03 avqust 2023-cü il saat 15:00-da yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***



*Təkrar*

# "Azərenerji" ASC

## 110 kV-luq ikidövrəli Cəbrayıl-Qubadlı EVX-nin bir dövrəsinin 110/35/10 kV-luq Laçın şəhər yarımstansiyasına giriş hissəsinin tikintisinin elektrik quraşdırma işlərinin satın alınması üzrə

## *açıq tender elan edir*

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlara malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər 3 000 (üç min) manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu əldə edə bilərlər. Əlaqələndirici şəxs: Araz Məmmədzadə, telefon: 490-09-27, 598-05-56.

**Hesab: AZ35AIIB33020019441024659102**
**VÖEN: 9900000421**
**Bank: "Kapital Bank" ASC-nin Mərkəz Filialı**
**Kodu: 200026**
**VÖEN: 9900003611**
**M/H: AZ37NABZ01350100000000001944**
**S.W.I.F.T: AIIBAZ2X**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tender təklifi, zərflərin açıldığı tarixdən sonra ən azı 50 bank günü qüvvədə olmalıdır;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı. Tender təklifinin qüvvədə olduğu müddətdən ən azı 30 bank günü artıq olmalıdır;*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Əmək Müqaviləsi Bildirişi üzrə Elektron İnformasiya Sistemində işçilərinin sayı və onların əməkhaqqı fondu barədə məlumatları əks etdirən sənəd;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının satınalma prosedurlarının başlanmasından əvvəlki 5 il ərzində (və ya fəaliyyətə başladığı dövrdən) özlərinin, habelə işlərini idarə edənlərin, qulluqçularının peşəkar fəaliyyətləri, yaxud satınalma müqaviləsinin bağlanması üçün ixtisas göstəricilərini yanlış göstərmələri ilə əlaqədar cinayətə görə məhkum olunmaması, yaxud onların müvafiq peşə fəaliyyətləri ilə məşğul olmasının məhkəmə qaydasında qadağan edilməməsi barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının müflis elan olunmaması, əmlakı üzərinə həbs qoyulmaması, ödənişə yönəlmiş girovun olmaması, məhkəmənin qərarı ilə kommersiya fəaliyyəti dayandırılmış şəxs olmaması barədə müvafiq dövlət orqanından arayış;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının ən azı 3 il müasir texnologiyalardan istifadə etməklə analoji işlərə uyğun elektrik stansiyalarının, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işlərinin təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər. Eləcə də yuxarıda sadalanan layihələr və tikinti işləri üzrə müqavilələrin ümumi dəyəri minimum olaraq 20 000 000 (iyirmi milyon manat) AZN-dən yuxarı olmasına dair təsdiqedici sənədlərin (təsdiqlənmiş müqavilə, Forma 2, Forma 3) təqdim olunması.*
- *iddiaçı şirkətin analoji işlərə uyğun elektrik stansiyalarının, yarımstansiyaların və elektrik verilişi xətlərinin tikintisi işləri üzrə ən azı 3 oxşar layihədə baş podratçı qismində iştirak təcrübəsinə malik olmasına dair təsdiqedici sənədlər;*
- *iddiaçı şirkətin çox təcrübəli, yüksək peşəkar mütəxəssislərinin olmasını təsdiq edən sənədlər (tərcümeyi-halları).*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə edilməlidir).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **25 iyul 2023-cü il saat 15:00-a** qədər, bank təminatını, tender təklifini isə **02 avqust 2023-cü il saat 15:00-a** qədər Bakı şəhəri, Ə.Əlizadə küçəsi 10 ünvanına, "Azərenerji" ASC-nin Ümumi şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların tender təklifləri **03 avqust 2023-cü il saat 15:00-da** yuxarıda göstərilən ünvanda (onlayn qaydada) açılacaqdır.

Onlayn iclasın linki əlaqələndirici şəxs tərəfindən iştirak edəcək iddiaçıların elektron poçt ünvanlarına müraciət əsasında göndəriləcəkdir.

İddiaçıların səlahiyyətli nümayəndələri onlayn qaydada iclasda iştirak edə bilərlər.

***Tender komissiyası***








# #Kitabfest: ədəbiyyata dair videolar 9 milyondan çox baxış toplayıb

"TikTok" Azərbaycanda ilk genişmiqyaslı **#kitabfest** ədəbiyyat layihəsinə yekun vuraraq, qalibləri müəyyən edib. Bu həştəq ilə kitablar haqda paylaşılmış videolar artıq **9 milyondan çox baxış toplayıb.** Layihə **#BookTok** qlobal fenomenindən formalaşıb və Bakıda keçirilən Milli Kitab Sərgisinə təsadüf edib.




May ayında qısa videolar izləmək və yaratmaq üçün aparıcı platforma olan "TikTok" Bakıdakı Milli Kitab Sərgisinin təşkilatçıları ilə birgə Azərbaycandakı istifadəçiləri ölkənin böyük virtual kitab klubuna #kitabfest həştəqi altında qoşulmağa dəvət edib. Ölkənin hər bir yanından "TikTok" istifadəçiləri kitab tövsiyələrini, sevimli əsərlərindən parçaları, kitab alışından görüntüləri, Bakıdakı Milli Kitab Sərgisindən təəssüratlarını və reportajlarını paylaşmış, öz şəxsi kitab kolleksiyalarını nümayiş etdirib və hələ də ədəbiyyatla bağlı müzakirələr aparmaqda davam edirlər.

Layihənin əhatə dairəsi Azərbaycandan olan istifadəçilərin mütaliəyə artan marağını nümayiş etdirməkdir: #kitabfest həştəqli videolar artıq ümumilikdə **9 milyondan çox baxış toplayıb** və onların sayı artmaqdadır.

Layihəyə bir çox məşhurlar da dəstək olublar. Layihədə iştirak edən bütün istifadəçilər arasında **ən kreativ videoların müəllifləri** müəyyən edilib və qaliblər açıqlanıb.

Qaliblərin hər biri layihə tərəfdaşlarından **dəyərli mükafat** qazanaraq, Ali&Nino mağazalar şəbəkəsindən 100 manat dəyərində kupon əldə edəcəklər.

*"Azərbaycanda maarifləndirici məzmunun məşhurlaşdığını görmək bizi çox sevindirir. Getdikcə daha çox istifadəçi platformaya təkcə əhvali-ruhiyyəsini qaldırmaq üçün deyil, həm də dünyagörüşünü genişləndirmək və ya maraqlı və faydalı nələrsə paylaşmaq üçün gəlir. Bizi çox ilhamlandırır ki, #kitabfest sayəsində ölkənin hər yerindən olan istifadəçilər ədəbiyyata olan sevgilərini bölüşmüş, sevimli kitab tövsiyələri haqda fikir mübadiləsi aparmış və həmfikir insanlar tapa bilmişlər. Əminəm ki, #kitabfest yeni ədəbi kəşflərin mənbəyinə çevriləcək və ən geniş auditoriyanı oxumağa ruhlandıracaq", - deyə* ***"TikTok"un Şərqi Avropa və Mərkəzi Asiya üzrə Əməliyyatlar departamentinin rəhbəri Ekaterina Blinets qeyd edib.***

Ümumilikdə dünyada #BookTok həştəqi altında olan videolar artıq "TikTok"da **150 milyard baxış toplayıb.** Videolarda müxtəlif ölkələrdən olan istifadəçilər oxuduqları kitablarla bağlı tövsiyələrini və təəssüratlarını bölüşürlər. #BookTok həm də artıq kitab sənayesində də öz təsirini göstərərək, yazıçılara populyarlıq qazanmağa və kitabların bestsellerlər siyahısına düşməsinə dəstək olur.

# "Titanik" can almaqda davam edir

## 111 il öncə okeana qərq olan əfsanəvi gəmini görmək istəyənlərin də həyatı faciəvi sonluqla bitdi

Atlantik okeanının 3800 metr dərinliyinə qərq olmuş "Titanik"i ziyarət etmək üçün səfərə çıxan turistləri daşıyan "OceanGate" şirkətinin "Titan" adlı sualtı gəmisi günlərdir yoxa çıxmışdı. Dünya mediasının gündəmində olan hadisədə səfərə yollananların 5 nəfər olduğu bildirilirdi. İyun ayının 18-dən yoxa çıxan gəminin axtarışlarına başlanılmışdı.



"Titan" saat 08:00-da dənizə enmiş və onun saat 15:00-da qayıdacağı gözlənildiyi halda, gəmi ilə əlaqə enişdən 1 saat 45 dəqiqə sonra, təxminən 09:45-də kəsilmişdi. Problem barədə sahil mühafizəsinə təxminən saat 17:45-də - 8 saat sonra məlumat verilmişdi.

### 250 min dollarlıq "ölüm" macərası

Bir nəfər üçün qiyməti 250 min dollar olan səyahətə qatılan macərapərəstlərin kimliyi təbii ki, hər kəs üçün maraqlı idi. Gəminin yoxa çıxmasından sonra günlərlə araşdırmalar davam etsə də, onların sağ qalıb-qalmaması ilə bağlı fərziyyələr də müxtəlif idi. Bu zaman gəminin təhlükəsizlik tədbirlərinin hansı səviyyədə olduğu sual doğururdu ki, elə bununla bağlı müxtəlif xəbərlərə rast gəlmək mümkündür.

"OceanGate"nin gəmisi ilə dəfələrlə "Titanik"ə səfərlər təşkil edilsə də, şirkətin əvvəlki əməkdaşının onun 3000 metr dərinliyə enməyə qadir olmadığı ilə bağlı iddialar səsləndirdiyi üçün işdən çıxarılması xəbərlərdə yer aldı. Los-Ancelesdəki Kapitanlı Sualtı Vasitələr Komitəsinin sədri Uilyam Kohnen bildirdi ki, əvvəllər "OceanGate" şirkətinə gəmisinin təhlükəsizliyi ilə bağlı narahatlıqlarını bildirən məktub yazıb. O, "fəlakətin qarşısı açıq şəkildə alına bilərdi" sözlərini işlədib.

Batmış "Titanik"ə turistləri daşıyan sualtı qayığın cəmi 96 saatlıq oksigen ehtiyatı olduğu bildirilmişdi. Bunun 10 saatdan çoxu "Titanik"ə gedib-gəlmək üçün sərf edilsə də, təxminən 4 günlük ehtiyatın olduğu açıqlanmışdı.

Beləliklə, gün keçdikcə, araşdırmalar nəticə vermədikcə, gəmi heyətinin sağ qalması ilə bağlı ümidlər də itirdi. Tarixinin ən böyük sərnişin gəmisi, bir əsrdən çoxdur haqqında, fəlakətlə bağlı müxtəlif hekayələr eşitdiyimiz əfsanəvi "Titanik"i görmək üçün okeanın dərinliyinə baş vuranlar da elə möcüzəvi şəkildə yoxa çıxdılar.

Partlayışla bağlı səsin öncəki günlərdə eşidildiyi qeyd edilsə də, ABŞ Sahil Mühafizə Xidməti bunu təsdiqləməmişdi. Xidmət ayın 22-də sualtı qayıqda daxili partlayış baş verdiyini və hər kəsin öldüyünü açıqladı. Bildirildi ki, Şimali Atlantikada yerləşən dağıntı sahəsi sualtı gəminin fəlakətli partlayışa məruz qaldığını göstərir.

Bu, ABŞ, Kanada və Fransa agentliklərinin rəhbərlik etdiyi beşgünlük geniş axtarış-xilasetmə əməliyyatına səbəb oldu. Cümə axşamı axşam saatlarında sahil mühafizəsi "Titan"ın beş əsas hissəsini tapdı və bildirdi ki, gəminin mühafizə qurğusunun sıradan çıxması fəlakətə səbəb olub. Qeyd edildi ki, həlak olanların cəsədlərinin nə vaxtsa çıxarılıb və ya çıxarılmayacağı bilinmir.

"OceanGate" şirkəti də bəyanatında 5 nəfərin öldüyünü bildirmiş və həyatını itirənlərin ailələrinə başsağlığı vermişdir. Şirkət bəyanatında qeyd etmişdir ki, bu insanlar fərqli macəra ruhu və dünya okeanlarını kəşf etmək üçün dərin entuziazmi olan əsl kəşfiyyatçılar idilər.

Hadisə ilə bağlı mütəxəssis rəyləri də mövcuddur. Sualtı qayıq mütəxəssisi Ofer Ketter bildirib ki, "Titan"da baş verən partlayış bütün ekipaj üzvlərini öldürüb. O vurğulayıb ki, partlayış baş verən zaman gəmidəki beş nəfər nə baş verdiyini anlamağa belə vaxt tapmayıb.

### "Titan"da həyatını itirən milyonçu macəraçılar

"Titan"da "Titanik"ə görə səfərə çıxan 5 nəfərin kimliyi açıqlanıb. Onlardan ikisi Pakistanın zəngin ailələrindən olan Britaniya vətəndaşı, "Dawood Hercules Corp" şirkətinin rəhbəri 48 yaşlı Şahzadə Dawood və onun 19 yaşlı oğlu Süleymandır.

Bundan başqa, ölənlər arasında britaniyalı milyarder iş adamı Hamiş Hardinq də var. O, okeana dalmağa başlamazdan əvvəl sosial media hesabında paylaşım edərək Nyufaundlenddə son 40 ilin ən pis qışı səbəbindən bu missiyanın "Titanik"ə 2023-cü ildə ilk və yeganə insanlı missiya olacağını yazmışdı.

Həlak olanlar arasında Fransa donanmasının keçmiş dalğıcı Paul-Henri Narqeolet də var. 73 yaşlı dalğıc, həmçinin "Titanik"in tədqiqatçılarından olub. 1987-ci ildə "Titanik"ə görə okeana dalan Narqeoletə "Mr Titanic" ləqəbi verilib. O, 37 dəfə suya enərək 800 müxtəlif obyekti sahilə çıxarıb.

Ölən 5-ci şəxs isə gəminin pilotu və "OceanGate"nin qurucusu Stokton Raşdır. Şirkətin təsisçisinin ölümündən sonra yayılan məlumatlara görə, onun qohumları 1912-ci il "Titanik" hadisəsinin qurbanlarından olublar. Belə ki, Raşın həyat yoldaşının ulu babası və nənəsi batan gəmidə birinci dərəcəli sərnişin heyətində yer alıblar.

Beləliklə, 111 ildən sonra daha 5 nəfər "Titanik"ın qurbanı oldu. Onların ölümünün təfərrüatları bilinməsə də, görünən odur ki, "Titanik" onu görmək istəyənlərin faciəvi sonluğu ilə daha 100 il də dillərdə dolaşacaq.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# ALLAH RƏHMƏT ELƏSİN!

Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin hakimi İsa Nəcəfov "Moderator.az" saytının baş redaktoru

**ZÜLFÜQAR HÜSEYNZADƏNİN**

vəfatından kədərləndiyini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verir.

K.Y.Fərəcova adına Elmi-Tədqiqat Pediatriya İnstitutunun direktoru və kollektivi xəstəxananın hüquqşünası Ziya Cavanşir oğlu Qənbərova anası

**LAMİYƏ QADİR QIZI QƏNBƏROVANIN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Əlaqə telefonları:

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman | |
| Baş redaktor müavinləri | - 538-86-86, | və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| | 434-63-30, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Fotoillüstrasiya şöbəsi | - 538-84-73, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Kompüter mərkəzi | - 538-20-87, |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | Mühasibatlıq | - 539-59-33 |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

contact@azerbaijan-news.az
az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 5784
Sifariş 1552

Qiyməti 40 qəpik